HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 47 (787) ▪ 2 dekabr 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan Prezidentinin Belarus Respublikasına rəsmi səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Belarus Respublikasına rəsmi səfər edib. Dövlətimizin başçısını bu ölkənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.*

Prezident İlham Əliyev əvvəlcə Minsk şəhərindəki «Qələbə» meydanına 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin şərəfinə ucaldılmış abidəni ziyarət edib, Belarus Dövlət Böyük Vətən Müharibəsi Tarixi Muzeyi ilə tanış olub.



Sonra Minskdə rəsmi qarşılanma mərasimi olub. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb. Sonra dövlət başçılarının təkbətək görüşü olub. Aleksandr Lukaşenko qeyd edib ki, Belarus-Azərbaycan münasibətləri inkişaf edir, əmtəə dövriyyəsi artır: «Bizim münasibətlərimizdə heç bir ehtiyatlanmalı və qapalı mövzu yoxdur. Bizim Sizinlə əməkdaşlığımız Belarusda vilayətin vilayətlə əməkdaşlığı kimidir. Bizim əməkdaşlığımız bu səviyyədədir».

Azərbaycan Prezidenti İlham Əliyev isə bildirib ki, ölkələrimiz arasında münasibətlərimiz möhkəm dostluğa əsaslanır: «Biz bütün istiqamətlər üzrə - həm siyasi sahədə, həm xarici siyasət, iqtisadiyyat, sənaye sahələrində bir çox məsələləri həll edirik. Bizdə də Belarusla əməkdaşlıq məsələləri ilə bağlı heç bir məhdudiyyət yoxdur və bütün istiqamətlər üzrə çox müsbət dinamika, nəticələr görürük».

Geniş tərkibdə keçirilən görüşdə siyasi, iqtisadi, sosial, humanitar sahələrdə münasibətlərin fəal inkişaf etməsi vurğulanıb. Aleksandr Lukaşenko bildirib ki, qarşılıqlı iqtisadi fəaliyyəti daha da artırmaq zəruridir.

Prezident İlham Əliyev qeyd edib ki, tərəflər arasında neft kimyası, energetika, kənd təsərrüfatı sahələrində kooperasiya imkanları, informasiya texnologiyaları sahələrində əməkdaşlıq üçün yaxşı potensial mövcuddur.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti ilə Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko imzalayıblar. «Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2025-ci ilədək sosial-iqtisadi əməkdaşlıq» haqqında müqavilə, «Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında məcburi dövlət sosial sığortası sahəsində əməkdaşlıq» haqqında Protokol, «Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə Belarus Milli Elmlər Akademiyası, Belarus Respublikası Fundamental Tədqiqatlar Fondu arasında əməkdaşlıq haqqında» Saziş imzalanıb.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata birgə bəyanatlarla çıxış ediblər. Prezident Aleksandr Lukaşenko bildirib ki, ticari-iqtisadi sahədə, investisiyalar sahəsində əməkdaşlığı artırmaq nəzərdə tutulur. Son illərdə qarşılıqlı əmtəə dövriyyəsi artımının müsbət dinamikası saxlanılır. Keçən il onun həcmi 330 milyon dollara bərabər olub. Cari ildə də qarşılıqlı ticarətin həcmi, demək olar ki, əvvəlki səviyyədə saxlanılıb. Həm də bu göstərici bizim qarşılıqlı fəaliyyətimizin mövcud potensialına dəlalət edir. Hər iki tərəf birgə istehsal güclərini artırmaqda, Azərbaycanda yığılan texnikanın model sırasını genişləndirməkdə, habelə Azərbaycanda yerli detallardan və dəstləşdirmə materiallarından istifadə edilməklə bizim şirkətlər tərəfindən yeni kooperasiya istehsalatları yaradılmasında maraqlıdır: «Belarus Respublikasının coğrafi mövqeyini, onun Avrasiya İqtisadi İttifaqının üzvü olmasını nəzərə alaraq, hesab edirik ki, Belarusda Azərbaycan xammalının, yarımfabrikatların emalı üzrə kooperasiya istehsalatları yaradılması, sonradan üçüncü ölkələrin, o cümlədən Avropa İttifaqının bazarlarına çıxmaq perspektivli istiqamətdir. Bu və digər istiqamətlərin müfəssəl işlənməsi üçün Belarus və Azərbaycan hökumətlərinə müvafiq tapşırıqlar veriləcək».

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatla çıxış edərək bildirib ki, prezidentlər tərəfindən imzalanmış Birgə Bəyannamə bizim həyat fəaliyyətimizin demək olar ki, bütün sahələrini əhatə edir: «Orada bizim bir-birimizi daim dəstəklədiyimiz beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyətimiz barədə də danışılır. İqtisadi, siyasi əməkdaşlıq, humanitar, sənaye istehsalı, hərbi-sənaye sahələrində əməkdaşlıqdan bəhs edilir. Biz iqtisadi sahədə gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyən etdik».

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanda Belarus texnologiyaları əsasında başqa istehsalatlar yaradılması məsələlərini, həmçinin Belarusda Azərbaycanın kənd təsərrüfatı məhsullarının emal edilməsi üzrə istehsalatlar yaradılmasını nəzərdən keçirməyə hazırıq. Qeyd olunub ki, iqtisadi əlaqələrin möhkəmlənməsi, biznes strukturlarının fəal qarşılıqlı əlaqəsi üçün möhkəm siyasi baza vardır.

# Türkiyə-Azərbaycan əlaqələri bütün sahələrdə inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə Mövlud Çavuşoğlunu təbrik edib və ilk səfərini Azərbaycana etməsindən məmnunluğunu ifadə edib. Bu yaxınlarda Antalyada uğurla keçirilmiş G20 Zirvə görüşünə toxunan dövlətimizin başçısı bildirib ki, Türkiyə bir daha bu tədbirə yüksək səviyyədə ev sahibliyi etməklə bir daha çox böyük bir gücə malik dövlət olduğunu nümayiş etdirdi. Azərbaycanın Zirvə görüşünə dəvət olunduğu üçün minnətdarlığını ifadə edən Prezident İlham Əliyevin sözlərinə görə, bu, həm xalqlarımıza, həm də dünyaya göstərir ki, Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın ölkələrdir.

Mövlud Çavuşoğlu xarici işlər naziri vəzifəsinə təyin edildikdən sonra ilk səfərini qardaş Azərbaycana etməkdən qürur hissi duyduğunu vurğulayıb, Zirvə toplantısında iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib, dövlətimizin başçısının bu tədbirdə beynəlxalq məsələlərlə bağlı söylədiyi fikirləri yüksək qiymətləndirib. O, Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə gələcəkdə daha da inkişaf etdiriləcəyinə, iki qardaş ölkənin prezidentlərinin liderliyi ilə bu əlaqələrin bundan sonra da yüksək səviyyəyə qaldırılacağına əminliyini ifadə edib.

Söhbət zamanı dövlətimizin başçısı Türkiyə ilə Rusiya arasında münasibətlərdə yaranmış gərginliyə toxunaraq qeyd edib ki, Azərbaycan hər iki ölkə ilə tarixən sıx əlaqələrə malikdir və bu gərginlikdən təəssüf və narahatlıq hissi keçirir. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfi Türkiyə-Rusiya münasibətlərindəki gərginliyin azaldılması və aradan qaldırılması istiqamətində səylərini göstərməyə hazırdır.

# Əməkdaşlığın perspektivləri müzakirə olunub

Prezident İlham Əliyev noyabrın 26-da Gürcüstanın daxili işlər naziri Giorgi Mqebrişvilini qəbul edib. Gürcüstana bu yaxınlarda etdiyi uğurlu rəsmi səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı səfər zamanı ikitərəfli münasibətlər, o cümlədən regional əməkdaşlıq və təhlükəsizlik ilə bağlı mühüm məsələlərin müzakirə olunduğunu vurğulayıb, regionda təhlükəsizliyin təmin olunması işində ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın rolunu xüsusi qeyd edib.

Giorgi Mqebrişvili Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin və Baş nazir İrakli Qaribaşvilinin salamlarını dövlətimizin başçısına çatdırıb. Hüquq mühafizə orqanları arasında əməkdaşlığa toxunan nazir xüsusilə dünyada terrorun və cinayətkarlığın hökm sürdüyü bir vaxtda ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəmini qeyd edib, ölkəsinin Azərbaycan ilə mədəni və sosial sahələrdə də əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb.

# Azərbaycan dünyada multikulturalizmin mərkəzi kimi tanınır

Noyabrın 26-da Bakıda İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş Konfransının XII sessiyasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sessiyada iştirak ediblər.




Sessiyanın açılışında beynəlxalq təşkilatların və xarici ölkələrin yüksək səviyyəli nümayəndələri, mədəniyyət və təhsil nazirləri, diplomatlar iştirak ediblər. Təşkilatın ali qərarverici orqanı olan Baş Konfrans hər üç ildən bir toplanır. ISESCO-nun ümumi fəaliyyət strategiyasını müəyyən edən Baş Konfrans zamanı təşkilatın fəaliyyət sahələrinə aid olan məsələlərlə bağlı əlaqələndirmə və qiymətləndirmə həyata keçirilir, qurumun növbəti üç il üçün Fəaliyyət Planı və büdcəsi təsdiqlənir.

Tədbir «Qurani-Kərim»dən ayənin oxunması ilə başlayıb. Sessiyada çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bu mötəbər tədbirin Bakıda keçirilməsi ölkəmiz üçün əlamətdar hadisədir: «Son illər ərzində ISESCO dünya miqyasında çox önəmli beynəlxalq təşkilata çevrilibdir. ISESCO-nun əsas vəzifəsi İslam aləmində elmin, təhsilin inkişafıdır, İslam aləminin zəngin mədəni irsinin qorunmasıdır. ISESCO bu sahədə çox böyük uğurlara nail olubdur. Eyni zamanda, bu gün dünya miqyasında beynəlxalq təşkilatlar arasında da ISESCO-nun öz yeri var. Qeyd etdiyim kimi, son illər ərzində baş direktor cənab əl-Tuveycrinin rəhbərliyi ilə ISESCO dünya miqyasında çox önəmli və böyük nüfuza malik olan təşkilata çevrilibdir».

Dövlətimizin başçısı qeyd edib ki, yaxın zamanlarda Bakıda ISESCO-nun regional mərkəzi yaradılacaq. Azərbaycan dövləti bu mərkəzin yaradılması üçün bütün lazımi tədbirləri görür. Mərkəz öz fəaliyyəti ilə həm regionda, həm ümumiyyətlə, İslam aləmində humanitar əməkdaşlığın dərinləşdirilməsi, İslam həmrəyliyinin gücləndirilməsi üçün fəal yol oynayacaqdır. Bildirilib ki, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində ISESCO daim Azərbaycanın mövqeyini, yəni haqqədaləti açıq şəkildə dəstəkləyir.

Prezident İlham Əliyev bildirib ki, bu yaxınlarda Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Azərbaycan artıq dünyada multikulturalizm mərkəzi kimi tanınır: «Azərbaycanda heç vaxt milli, dini zəmində qarşıdurma olmamışdır və əminəm ki, olmayacaqdır».

Sonra Prezident İlham Əliyev ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycriyə «Dostluq» ordenini təqdim edib.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ BİLƏSUVARDA VƏTƏNDAŞLARI QƏBUL EDİB 2

AZƏRBAYCANIN VERGİ SAHƏSİNDƏKİ TƏCRÜBƏSİ ÖYRƏNİLİR 3

SÜRƏTLİ İQTİSADİ İNKİŞAFIN TƏMƏLİ 4

İPOTEKA KREDİTİ: FAKTLAR VƏ RƏQƏMLƏR 5

# Vergilər naziri Biləsuvarda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə köməklik göstərirlər.

Noyabr ayının 27-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Biləsuvar şəhərində Cəlilabad, Biləsuvar, Masallı və Yardımlı rayonlarından olan vətəndaşları qəbul etmişdir. Qəbulda vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, POS-terminalların quraşdırılması, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılmışdır.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan məmnunluqlarını bildirmişlər.

# Vergilər Nazirliyində görüş

Vergilər Nazirliyində BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə prezidenti Qordon Birel ilə görüş keçirilmişdir. Vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov qonağı səmimi salamlayaraq, onu ölkəmizdə görməkdən məmnunluğunu ifadə etmişdir.

Sonra vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov ölkəmizin vergi sistemində aparılan islahatlar və bu sahədə əldə olunan uğurlar haqqında qonağa məlumat vermişdir. Qeyd olunmuşdur ki, Azərbaycanın mövcud iqtisadi durumunda vergi orqanlarının üzərinə kifayət qədər çətin və mürəkkəb vəzifələr düşür. Vergilər Nazirliyi vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyicilərinə xidmətlərin genişləndirilməsi yolu ilə qlobal iqtisadiyyatda baş verən mənfi proseslərin ölkə iqtisadiyyatına təsirini minimallaşdırmaq üçün öz fəaliyyət sahəsinə aid tədbirlər həyata keçirir, Azərbaycana investisiya qoyulmasında birinci olan BP şirkəti ilə əməkdaşlığa xüsusi önəm verir.

Qordon Birel səmimi qəbula görə təşəkkürünü bildirmiş, Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etməsindən, ölkədə ən böyük xarici sərmayəçilərdən biri olan BP şirkətinin bu inkişafa öz töhfəsini verməsindən məmnunluğunu ifadə etmişdir. O, BP şirkətinin vergi öhdəliklərinin yerinə yetirilməsinə daim diqqətlə yanaşdığını, hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən tərəfdaşlarla birgə Vergilər Nazirliyi ilə yaxşı əməkdaşlıq qurulduğunu qeyd etmişdir.

Görüşdə Azərbaycan və BP arasında əməkdaşlığın hazırkı səviyyəsi, həyata keçirilən enerji layihələri və onların perspektivləri, dünyanın enerji bazarındakı mövcud vəziyyət barədə fikir mübadiləsi aparılmış, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

# Azərbaycan Almaniya üçün güclü tərəfdaşdır

*Alman-Azərbaycan Xarici Ticarət Palatasının təşkil etdiyi 15-ci iqtisadi forumda hər iki ölkəni təmsil edən rəsmi şəxslərlə yanaşı, neft-kimya, energetika, qida sənayesi, logistika və s. sahələrdə fəaliyyət göstərən 70-dən çox iş adamı iştirak edib.*

İqtisadiyyat və Sənaye Nazirliyi Aparatının rəhbəri Samir Vəliyev forumu açaraq Azərbaycanın Almaniya ilə ikitərəfli əməkdaşlığa böyük önəm verdiyini, ölkələrimiz arasında əməkdaşlığın qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipləri üzərində qurulduğunu, iki ölkə arasında geniş müqavilə-hüquq bazası yaradıldığını, bu sahədə Almaniya-Azərbaycan Xarici Ticarət Palatasının fəaliyyətinin əhəmiyyətli rol oynadığını qeyd edib. Bildirilib ki, hazırda Azərbaycanda 183 alman şirkəti çalışır. Ölkə iqtisadiyyatına 475 milyon sərmayə yatırılıb ki, bunun da 375 milyonu qeyri-neft sektorunun payına düşür.

Almaniya Federativ Respublikasının İqtisadiyyat və Enerji Federal Nazirliyinin Cənubi Qafqaz üzrə məruzəçisi Margit Steffel çıxışında bildirib ki, Azərbaycana səfərin əsas məqsədi şirkət nümayəndələrinə informasiya tədbirləri vasitəsilə xarici bazarlar haqqında əsas mənbələrdən məlumat almaq, ikitərəfli görüşlərdə onların gələcəkdə həyata keçirəcəyi fəaliyyəti üçün hökumət və iqtisadiyyatı təmsil edən əməkdaşlar ilə əlaqə qurmağa imkan yaratmaqdır: «Azərbaycan Almaniya üçün maliyyəsi güclü olan ticarət tərəfdaşıdır. İkitərəfli iqtisadi münasibətlər son illərdə xeyli dərinləşib. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 3,2 milyard dollara çatıb. Almaniya 2014-cü ildə Azərbaycan üçün idxalda və ixracda ən vacib 4-cü ölkə hesab edilib».

İqtisadi Forumun rəsmi açılış mərasimindən sonra tikinti və maşınqayırma, neft-qaz və kimya sənayesi sahələri üzrə iki «dəyirmi masa» təşkil olunub. Tədbir çərçivəsində maşın və avadanlıq, inşaat materialları, ekologiya sahələrini təmsil edən şirkətlərlə ikitərəfli görüşlər keçirilib.

# Kənd təsərrüfatı sığortası ilə bağlı təlim

Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) Avropa və Mərkəzi Asiya üzrə aqro-maliyyə layihəsi Azərbaycan Sığortaçılar Assosiasiyası ilə birlikdə yerli sığorta şirkətləri üçün «Azərbaycanda kənd təsərrüfatı sığortası mexanizmlərinin təkmilləşdirilməsi» mövzusunda təlim təşkil edib. Tədbirin məqsədi Azərbaycanda kiçik və orta miqyaslı aqro-biznes müəssisələrin inkişafına yardım, eləcə də aqro-sığortanı təşviq etmək idi.

Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisi Namiq Xəlilov, Kənd Təsərrüfatı Nazirliyinin Maliyyə və mühasibat şöbəsinin baş məsləhətçisi Rəhim Novruzov, BMK-nın Azərbaycan üzrə daimi nümayəndəsi Aliyə Əzimova və Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) sədri Orxan Bayramov təlimin mövzusu ətrafında müzakirələrdə iştirak ediblər.

BMK-nın Şərqi Avropa və Mərkəzi Asiya regionunda kənd təsərrüfatı maliyyəsi bölməsinin sığorta üzrə mütəxəssisi Andrey Zaripov, Şərqi Avropa və Mərkəzi Asiyada kənd təsərrüfatına aid maliyyə xidmətləri üzrə proqramın meneceri Lea Soroka iştirakçılara sığorta məhsullarının hazırlanması metodologiyası üzrə təlim keçiblər. Təlim zamanı iştirakçılar məlumat tələblərinin icmalı, sığorta məhsullarının növü, strukturu və komponentləri, yenidən sığortalanma və aqro-sığorta sisteminin inkişafı üçün lazım olan digər əhəmiyyətli aspektlərlə təmin olunub, ekspertlər bu sistemin Ukraynada tətbiqi ilə bağlı öz təcrübələrini bölüşüblər.

**FƏXRİYYƏ**

# Sahibkarlığın inkişafına dövlət qayğısı gücləndirilir

## *Vergilər Nazirliyi tərəfindən aparılan yoxlamaların məhdudlaşdırılması da məhz bu məqsədə xidmət edir*

Sahibkarların hüquqlarının qorunması və dövlət tərəfindən sahibkarlığın inkişafına dəstək ölkənin iqtisadi həyatı üçün mühüm əhəmiyyət daşıyır. Buna görə də sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün addımlar atılır, biznesə başlama prosedurları sadələşdirilir, sahibkarların maarifləndirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi həyata keçirilir. Xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib. Lisenziyaların «ASAN xidmət» vasitəsilə verilməsi ilə bağlı ölkə başçısının qərarı da məhz bu məqsədə xidmət edir. Sahibkarlara lisenziyaların, mənşə və keyfiyyət sertifikatlarının elektron qaydada əldə etmək imkanları yaradılıb. Sahibkarlar tələb olunan sənədləri elektron formada təqdim etməklə yanaşı, həmin xidmətlər üçün qanunvericiliklə müəyyən olunmuş bütün dövlət rüsumlarının və xidmət haqlarının ödənişini də onlayn rejimdə həyata keçirə bilərlər. Bu məqsədlə İqtisadiyyat və Sənaye Nazirliyinin internet saytında yaradılmış elektron xidmətlər bölməsində müxtəlif fəaliyyət növlərinə verilən lisenziya və sertifikatlar, xidmətlərin göstərilməsi üçün tələb olunan sənədlərin siyahısı və müraciət edən şəxs tərəfindən doldurulmalı olan ərizə və digər sənədlərin elektron forması yerləşdirilib. Artıq nazirliyin daxili informasiya sistemi Mərkəzi Bank tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminə (KÖMİS) inteqrasiya olunub.

Sahibkarların maraqlarının müdafiəsini gücləndirmək və dövlət dəstəyini artırmaq, əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə ölkə başçısı tərəfindən atılmış daha bir mühüm addım yoxlamaların dayandırılmasıdır.

İcazə verilən yoxlamalar isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılacaq. Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluq tərəfindən aparılan yoxlamalara şamil edilmir. Sahibkarlar bu qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti orqanına, prokurorluq orqanlarına, həmçinin inzibati və məhkəmə qaydasında şikayət edə bilərlər.

Qanun vergi yoxlamalarının dayandırılmasına və ya ləğv edilməsinə aid olmasa belə, Vergilər Nazirliyi kiçik və orta biznesin inkişafı məqsədilə vergi yoxlamalarının azaldılması ilə bağlı qərar qəbul etmişdir. İllik dövriyyəsi 120 min manatdan aşağı və sadələşdirilmiş vergi ödəyicisi olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları məhdudlaşdırılıb. Bununla belə, operativ nəzarət tədbirləri zamanı əmək müqavilələrinin bağlanmasına, vergi ödəyicilərinin dövriyyəsinin müəyyənləşdirilməsi məqsədilə xronometraj metodu ilə yoxlamaların keçirilməsi və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət istisna edilir.

*Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə göndərdiyi «Sahibkarlıq fəaliyyətində yoxlamaların dayandırılması haqqında» qanun layihəsi parlament tərəfindən qəbul olunub. Qanun bir çox dövlət orqanları tərəfindən yoxlamaların 2015-ci il noyabrın 1-dən hesablanmaq şərti ilə 2 il müddətində dayandırılmasını nəzərdə tutur. Bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar istisna olmaqla bütün yoxlamalar dayandırılmalıdır.*

Vergi yoxlamalarının məhdudlaşdırılmasında əsas məqsəd vergi ödəyiciləri ilə münasibətləri partnyorluq səviyyəsində qurmaqdır. Yəni vergi orqanları kiçik və orta bizneslə məşğul olan vergi ödəyiciləri ilə nəzarətdən çox əməkdaşlığa üstünlük verəcək. Vergi ödəyiciləri ilə xidmət sahəsində işlər isə daha da genişlənəcək: hər bir vergi ödəyicisinə ünvanlı xidmət göstəriləcək, vergi qanunvericiliyi izah olunacaq. Xüsusən regionlarda vergi ödəyicilərinə texniki, hüquqi yardımlar ediləcək, vergilərin vaxtında və tam ödənilməsində, hesabatların təqdim olunmasında əməli köməklik göstəriləcək.

**Rəşad SADIQOV**



# Azərbaycanın vergi sahəsindəki təcrübəsi öyrənilir



*Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Vergi Müfəttişliyinin rəhbəri İon Prisekarunun «Vergilər» qəzetinə müsahibəsi*

***- Cənab Prisekaru, Moldovanın vergi administrasiyası ilə Azərbaycanın Vergilər Nazirliyi arasında əlaqələrin inkişafında hansı məqamları vurğulamaq istərdiniz?***

- Bu mənim Azərbaycana ilk gəlişimdir. Azərbaycan xalqının qonaqpərvərliyi barədə çox eşitmişdim və bunun əyani şahidi oldum...

Vaxtilə eyni ölkəni təmsil edən xalqlar kimi bizi bir çox amillər birləşdirir. Vergi sahəsində də eyni cür düşünürük və vergi ödəyicilərimizin vergilərin ödənilməsinə dair savad səviyyəsi də eynidir. Ona görə də Azərbaycanın vergi sahəsindəki təcrübəsini öyrənmək bizim üçün böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən, mən Azərbaycana gəlməyi və Vergilər Nazirliyinin iş üsulları ilə yaxından tanış olmağı özümə borc bildim. Çünki məndə məlumatlar vardı ki, burada islahatlar müvəffəqiyyətlə tətbiq olunur və indiyədək olduqca müsbət nailiyyətlər əldə olunub. Bu səbəbdən də çox istərdim ki, nazirliyin bu sahədə hansı çətinliklərlə qarşılaşdığını, hansı islahatların tətbiqini reallaşdırdığını və hansı islahatların hələ tətbiq olunma mərhələsində olduğunu şəxsən müəyyən edim. Müşahidələrimə əsasən, onu deyə bilərəm ki, vergi siyasətinin tətbiqi ilə məşğul olan Vergilər Nazirliyi və onun yerli orqanları bu işi təmkinlə və məqsədyönlü şəkildə həyata keçirirlər.

***- Səfər çərçivəsində vergi ödəyicilərinə xidmət strukturları ilə də tanış oldunuz. Təəssüratlarınızı bilmək istərdik.***

- Xidmət strukturlarının işi ilə bağlı gözəl təəssüratlarım var. Burada bütün işlər ən yüksək səviyyədə təşkil olunub və hər şey vergi ödəyicisinin rahatlığı üçün hesablanıb. Demək istəyirəm ki, vergi ödəyicisinin rahatlığı və məlumatlandırılması üçün bütün xırdalıqlar nəzərə alınıb. Vergilərin hesablanması və ödənilməsi, vergi xərclərinin aşağı salınması istiqamətində vergi ödəyicilərinə hüquqi köməklik göstərilir. Çox təəssüf ki, vergi ödəyiciləri ilə şəxsən görüşmək imkanım olmayıb, bununla belə, hesab edirəm ki, Azərbaycanın vergi ödəyicisi olsaydım, vergi sahəsində bu işləri yüksək qiymətləndirərdim.

***- Azərbaycanın vergi sistemində daha çox maraq doğuran məqamlar barədə nə deyə bilərsiniz?***

- Vergi yoxlamalarının keçirilməsinə yanaşma üsulları böyük marağıma səbəb oldu. Burada əsas məsələ vergilərin vergi ödəyicilərinin özləri tərəfindən, öz təşəbbüsləri ilə könüllü olaraq ödənilməsidir. Azərbaycanın vergi ödəyiciləri həm öz hüquqları barədə, həm də vergi qanunvericiliyinin aktual müddəaları barədə ardıcıl məlumatlandırılır. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti vergi ödəyicilərini qanun pozuntularından və cinayət məsuliyyətindən çəkindirmə istiqamətində əməli işlər aparır, onları nizam-intizama dəvət edir və vergilərin könüllü ödənilməsinə imkan yaradır.

Nazirliyin vergi ödəyicilərinə göstərdiyi yüksək xidmətlər kimi, öz əməkdaşlarına qarşı münasibətdə tələbkarlıq da təqdirəlayiqdir. İşçilər üçün düzgün, əlverişli əmək şəraitinin yaradılması, onların ixtisasının artırılmasına diqqət yönəldilməsi son nəticədə vergi daxilolmalarının səmərəliliyinin artırılmasına zəmanət verə bilər.

Vergilər Nazirliyinin tətbiq etdiyi üsullar vergi pozuntularının qarşısını almağa imkan verir ki, bu da çox vacib amildir. Çünki vergi sahəsində qanun pozuntularının qarşısının alınması dövlət büdcəsinə vəsaitlərin vaxtında daxil olması deməkdir. Bu sahədə idarəetmə mexanizmi bizim üçün çox maraqlıdır.

***- Azərbaycan Vergilər Nazirliyi ilə hansı sahələr üzrə əməkdaşlıq etməyi düşünürsünüz?***

- Əsas istəyimiz Vergilər Nazirliyində vergi yığımları üzrə əldə olunmuş idarəçilik təcrübəsini, qabaqcıl metodları və menecment üsullarını Moldovada tətbiq etməkdir. Ümid edirəm ki, administrasiyalarımız arasında əməkdaşlıq daha da inkişaf edəcək. Bunun üçün azərbaycanlı həmkarlarımızın metodiki və əməli köməyinə ehtiyac duyuruq.

Etiraf etmək istəyirəm ki, Moldova Respublikasının vergi xidmətinin rəhbəri kimi məni vergi auditinin vəziyyəti daha çox narahat edir və ölkəmizdə bu sahənin təkmilləşdirilməsinə ehtiyac var, bu baxımdan vergi auditinin idarə edilməsində Azərbaycanla təcrübə mübadiləsi aparmağı vacib hesab edirik.

Azərbaycanda vergidən boyun qaçıranlarla işin təşkili və vergi cinayətlərinin araşdırılması üzrə əldə olunmuş təcrübəni əhəmiyyətli hesab edirəm. Ölkəmizdə müzakirəyə çıxarılması gözlənilən yeni qanun layihəsi bu cür idarətmə təcrübəsinin tətbiqini nəzərdə tutur. Bizim bu sahədə təcrübəmiz yoxdur və işə sıfırdan başlamalıyıq.

***- İndiyədək Moldova vergi orqanları Vergilər Nazirliyinin hansısa təcrübəsindən yararlanıbmı?***

- Əməkdaşlarımız dəfələrlə Vergilər Nazirliyində olublar. Bu səfərlərin nəticəsi olaraq, bu gün bəzi elektron xidmətlərin tətbiqinə nail olmuşuq. Xüsusilə elektron hesab-faktura, vergi ödəycisinin elektron məlumatlandırılması kimi bir sıra xidmətləri tətbiq etdik. Vergilər Nazirliyinin maraqlı bir təcrübəsindən öz şəraitimizə uyğun şəkildə istifadə edirik: əhalinin məlumatlandırılması prosesini ictimaiyyətin hörmət etdiyi insanlar vasitəsilə həyata keçirməyə nail olmuşuq. Biz konkret əraziyə cavabdehlik daşıyan sahə vergi müfəttişləri hazırlamaq üçün ictimaiyyət arasından nüfuzlu şəxsləri seçib işə cəlb etmişik. Onlar vergi ödəyiciləri ilə görüşür, ərazinin pasportunu hazırlayır və orada çalışan bütün vergi ödəyicilərini qeydə alırlar. Bu şəxslərin vergi ödəyicilərini cəzalandırmaq səlahiyyəti yoxdur, yalnız vergi ödəyicilərinə yardım göstərmək və vergi pozuntularının olmaması üçün xəbərdarlıq etmək funksiyaları var. Onlar vergi ödəyicisinin dostlarıdır və vergi ödəyicisi də onları həqiqi dost kimi qəbul etməlidir. Hər bir vergi ödəyicisinin yol verdiyi pozuntular haqqında bütün informasiyalar məlumat bazamızda toplanır və təhlil edilir. Vergi ödəyicisi ilə görüş təyin olunur və ona həmin qanun pozuntularının qarşısını almaq üçün yardım göstərilir. Əgər vəziyyət təkrarlanarsa, bu işə səlahiyyətli strukturlar cəlb olunur və aşkarlanan pozuntulardan asılı olaraq, müvafiq hüquqi tədbirlər görülür.

***- Ölkələrimiz arasındakı iqtisadi əlaqələri necə qiymətləndirirsiniz?***

- Çox istərdim ki, Azərbaycanla Moldova arasında iqtisadi əməkdaşlıq sayəsində idxal-ixrac əməliyyatlarının əhatəsi genişlənsin. Hesab edirəm ki, qarşılıqlı iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi münasibətlərimizin inkişafına öz töhfəsini verəcək.

**AYTƏN**

## Vahid bankomat şəbəkəsinin yaradılması nəzərdə tutulur

Azərbaycan bankları yaxın vaxtlarda ölkə üzrə vahid bankomat şəbəkəsinin yaradılmasına hazırlaşır. Əsas məqsəd müştərilərin maliyyə vəsaitlərinə və innovativ bank məhsullarına çıxışının asanlaşdırılması, onlara göstərilən bank xidmətlərinin maya dəyərinin aşağı salınması və müştəri məmnunluğunun təmin edilməsi imkanlarının araşdırılmasından ibarətdir.

Mərkəzi Bankın dəstək verdiyi layihə çərçivəsində banklar öz fəaliyyətində kartlı ödəniş sistemləri, alternativ xidmət kanalları (internet bankçılıq, mobil bankçılıq, ATM, Çağrı Mərkəzi və s.), ödəniş sistemlərinin təhlükəsizliyi və digər nağdsız ödənişlərlə əlaqədar bank sistemindəki mövcud vəziyyətin, bankların qarşılaşdıqları problemlərin və digər əlaqədar məsələlərin müzakirə edilməsi, bu istiqamətdə xarici təcrübənin - qabaqcıl ölkələrin innovativ yanaşmalarının öyrənilməsinə hədəflənməyi planlaşdırılır. Bundan əlavə, müvafiq qurumlara ünvanlanacaq əsaslandırılmış təkliflərin verilməsi, hüquqi-normativ baza və standartların hazırlanmasında iştirak, bu sahələrin inkişafı üçün banklararası razılaşmaların mümkünlüyünün müzakirəsi və digər bu qəbildən olan fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

Vahid ATM şəbəkəsinin yaradılması ilə yanaşı, ödəniş kartlarının təhlükəsizliyinin möhkəmləndirilməsi də əsas prioritetlərdəndir. Bu məqsədlə çip texnologiyalı ödəniş kartlarına keçid nəzərdə tutulur. MB maqnit zolaqlardan ibarət olan yeni ödəniş kartlarının təhlükəsizliyinin «PCI DSS» beynəlxalq standartına uyğunlaşdırılmasını banklara tövsiyə edib. Eyni zamanda, ödəniş terminallarının da ən müasir texnologiyalarla təmin olunması məqsədilə bankomatlarda xüsusi sensorların (titrəyiş, istilik və s.), həmçinin kənar xarici qurğuların yerləşdirilməsini aşkarlayan və ya sıradan çıxaran, o cümlədən bankın təhlükəsizlik xidmətinə xəbərdarlıq siqnalı göndərən xüsusi qurğuların quraşdırılması planlaşdırılır. Quraşdırılmış gizli kameraların və ətrafdakı şəxslərin kart sahibi tərəfindən daxil edilən PIN kodu görə bilməməsi üçün «PIN pad»ın üzərində xüsusi maneələrin (məsələn., düymələri yalnız istifadəçinin görə bilməsinə imkan verən tor) quraşdırılması da bu tövsiyələr sırasındadır.



Bank mütəxəssisləri hesab edirlər ki, vahid ATM şəbəkəsinin yaradılması kartlardan istifadə zamanı tutulan komisyon haqların da aşağı düşməsinə səbəb ola bilər. Layihənin tətbiqi üçün bank nümayəndələrinin vahid bankomat şəbəkəsinə dair beynəlxalq təcrübəni mənimsəməsi nəzərdə tutulur.

**E.CƏFƏRLİ**

## İxracın asanlaşdırılması üçün tədbirlər görülür

Milli ixracatçıların xarici bazarlara çıxışının təşviq etmək məqsədilə əsas tədbirlərdən biri də qeyri-neft məhsullarına mənşə sertifikatının verilməsi üçün ekspertiza xidmətləri tariflərinin azaldılmasıdır. Artıq ötən ay bu tariflər 30% aşağı salınıb. Yeni yaradılmış Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası isə ölkənin tranzit imkanlarını genişləndirməklə yanaşı, yükdaşımalar sahəsində vahid tarif siyasətinin həyata keçirilməsinə, prosedurların sadələşdirilməsinə imkan yaradacaq. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) nümayəndəsi Zaur Qardaşov bildirib ki, xarici ticarətdə tətbiqi nəzərdə tutulan elektron qeydiyyat sistemi də ixracın stimullaşdırılmasında mühüm rol oynayacaq. Bu sistem elektron xidmətlər sahəsində həyata keçirilən tədbirlərin mühüm hissəsi olacaq və ticarətin liberallaşdırılmasına kömək edəcək.

Sahibkarları təmsil edən ictimai təşkilatların, eləcə də dövlət qurumlarının nümayəndələrinin, beynəlxalq qurumların ekspertlərinin iştirakı ilə «İxraca dəstək xidmətlərinin inkişafı» Tvinninq layihəsi çərçivəsində ixracın təşviqinə dair rəy və təkliflər qiymətləndiriləcək, birgə təkliflər paketi hazırlanacaq. Sənəddə yerli məhsulun istehsal həcmini, əməyin səmərəliliyini, malların keyfiyyətini və rəqabət qabiliyyətini yüksəltmək məqsədilə istehsalçılara hərtərəfli yardımı artırmaq, qanunvericilik və beynəlxalq hüquq normaları əsasında daxili və xarici bazarlarda istehsalçıların mənafelərini müdafiə etmək, istehsal olunmuş hazır məhsulun dünya bazarlarına ixracını stimullaşdırmaq kimi tədbirlər nəzərə alınacaq. Layihə çərçivəsində yerli sahibkarların xarici ölkələrə işgüzar səfərlərinin təşkili və Avropa İttifaqının biznes-ticarət strukturlarında təcrübə keçməsi də nəzərdə tutulur.

Tezliklə istifadəyə veriləcək Aktau logistik mərkəzi Azərbaycanın ixrac potensialının artmasında çox faydalı olacaq. Mərkəz kənd təsərrüfatı və digər qida məhsullarının saxlanmasını və satışını təmin edəcək.

**ELBRUS**

## «ASAN xidmət»in əhatəsi genişlənir

Bu aydan «Azərişıq» ASC «ASAN xidmət» mərkəzləri ilə birgə abonentlərin istifadəsinə daha iki yeni xidmət verəcək. «Azərişıq»dan verilən məlumata görə, abonentlər «smart-kart» tipli sayğaclarda kartın bərpası və yenisinin verilməsi üçün «ASAN xidmət» mərkəzlərinə müraciət edə biləcəklər. Bundan başqa, artıq bu aydan etibarən bu xidmət vasitəsilə qeyri-əhali üzləşmə aktlarının da verilməsinə başlanacaq. Hazırda «Azərişıq» «ASAN xidmət» mərkəzləri ilə birgə vətəndaşlara borcun olmamasına dair arayışın verilməsi, elektrik enerjisi istehlakçısının dəyişdirilməsi, məişət abonentlərinin elektrik şəbəkəsinə qoşulması, borcun araşdırılması xidmətləri göstərir.

Xatırladaq ki, «ASAN xidmət» klassik vahid məkan prinsipinə əsaslanan 10 dövlət orqanının - Ədliyyə, Daxili İşlər, Vergilər nazirliklərinin, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 30 qrup hüquqi xidməti həyata keçirilir. Ümumilikdə isə özəl şirkət və müəssisələrlə birlikdə göstərilən xidmətlərin sayı 220-dən çoxdur.

**F.İKRAMQIZI**



## Daha bir beynəlxalq layihə

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) kənd təsərrüfatının kreditləşməsi məqsədilə Azərbaycana 40 milyon dollar vəsait ayırıb. Bank Avropa İttifaqının dəstəyi ilə ölkədə «Azərbaycanda kənd təsərrüfatı maliyyə alətləri» layihəsini (AZAFF) həyata keçirməyə başlayır.

Layihənin aparıcı bank mütəxəssisi İlqar Tağıyevin bildirdiyinə görə, bundan əlavə, məsləhət xidmətlərinin göstərilməsi və ya texniki dəstək üçün də vəsait ayrılıb. 40 milyon dollar, əsasən, banklar vasitəsilə fermerlərə ayrılacaq. 300 min dollardan yuxarı məbləğdə kredit istəyən müştərilərə isə vəsait birbaşa AYİB tərəfindən veriləcək. Layihənin funksiyası, əsasən, banklara və müştərilərə məsləhətlərin verilməsidir.

Artıq partnyor bankların seçilməsi prosesi gedir və layihə çərçivəsində 5-6 bankın iştirakı nəzərdə tutulur. Kreditlər 7 illədək müddət üçün ayrılacaq. Kənd təsərrüfatı kreditlərinin risklərinin minimallaşdırılması üzrə xüsusi sistem yaradılıb. «ALLES» proqramı adlanan bu sistemdə kənd təsərrüfatının ayrı-ayrı sahələri barədə geniş məlumat var.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Torpaq vergisi

**Bakı şəhərində 2 hektar bağ sahəm var. Nə qədər torpaq vergisi ödəməli olduğumu bilmək istəyirəm. Himayəmdəki 3 azyaşlı uşağa görə mənə hər hansı vergi güzəşti tətbiq olunmalıdırmı?**

Vergi Məcəlləsinin (VM) 204-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir.

Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır (VM, maddə 203.1).

Torpaq vergisinin dərəcəsi VM-in 206-cı maddəsi ilə tənzimlənir. Sorğuda qeyd edilən torpaq sahəsinin Bakı şəhərində yerləşdiyi və ümumi sahəsinin 10.000 m2-dən çox olduğu nəzərə alındıqda, torpaq vergisi torpaq sahəsinin hər 100 kvadratmetrinə 1,2 manat müəyyən edilməklə hesablanmalıdır.

Onu da nəzərinizə çatdıraq ki, torpaq vergisinə münasibətdə müəyyən vergi güzəştləri nəzərdə tutulmuşdur. Vergi güzəştləri ilə yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları, dövlət hakimiyyət orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Mərkəzi Bankın və onun qurumlarının, habelə Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar, istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar, dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar torpaq vergisinə cəlb edilmir (VM, maddə 207).

VM-in 207.4-cü maddəsi ilə Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru sənaye, yaxud texnologiyalar parklarının ərazisində istifadə etdiyi torpaqlara görə torpaq vergisini ödəməkdən azaddır.

VM-in 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır.

VM-in 102.2-ci və 207-ci maddələrinin məzmunundan göründüyü kimi, vergi ödəyicisinin himayəsində 3 azyaşlı uşağın olmasına görə torpaq vergisinin ödənişinə münasibətdə hər hansı güzəşt və ya azadolma nəzərdə tutulmamışdır.

Əlavə olaraq qeyd edək ki, müvafiq orqanlar tərəfindən hər il iyulun 1-dək fiziki şəxslərə torpaq vergisi hesablanır və tədiyyə bildirişləri onlara avqustun 1-dən gec olmayaraq çatdırılır. Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir.

Fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Vladimir İltifatoviç Əzizov yaxşı əl qabiliyyəti olduğundan özünü dəmir qapı və darvaza ustası kimi sınayıb. Qısa vaxt ərzində xeyli müştəri toplayıb, sonradan ayrıca sex açıb. Sifarişləri getdikcə artan Vladimir kiçik sahibkar kimi yeni müəssisə yaradıb və vergi orqanında qeydiyyatdan keçirib. Müəssisənin fəaliyyəti metal konstruksiya, dəmir qapı, darvaza, hasar, dəmir barmaqlıq, məhəccər və s. hazırlanması ilə bağlı olub. Dövlətə vergi ödəməyə gəldikdə isə...

Vergi orqanı əməkdaşlarının keçirdikləri səyyar yoxlamalar zamanı V.Əzizovun mövcud qanunvericiliyə məhəl qoymayaraq, 19.849,53 manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayındırdığı aşkar edilib. Məlum olub ki, üzdəniraq sahibkar vergi orqanına təqdim etdiyi bəyannamələri qəsdən saxtalaşdırıb, dövlət büdcəsinə ödəniləcək vergini öz şəxsi məqsədlərinə yönəldib. Onun bu əməlləri Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.6, 53.1, 72, 78.1, 101.3, 130.1, 130.2, 159.1, 166.1, 174.1, 177.1.1, 177.1.2, 177.2, 177.6-cı maddələrinin tələblərinin pozulması kimi qiymətləndirilib.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən təqdim olunmuş materiallar əsasında V.Əzizovun Azərbaycan Respublikası CM-in 213.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi başlanıb və o, təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilib, barəsində «başqa yerə getməmək haqqında iltizam» qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə aparılmış istintaqla müəyyən edilib ki, V.Əzizov qaimə-faktura, kassa-mədaxil qəbz və orderləri, müqavilələri, eləcə də bəyannamələri şəxsən özü tərtib edib. İstintaq zamanı elan olunmuş ittihamda özünü təqsirli bilən sahibkar vergi ödənişləri üçün nəzərdə tutulmuş vəsaitləri mənimsəyərək şəxsi məqsədləri üçün istifadə etdiyini deyib. Şahid qismində dindirilən şəxslərin ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında onun törətdiyi cinayət əməlləri tam sübuta yetirilib.

Məhkəmənin hökmü ilə V.Əzizov CM-in 213.1-ci maddəsi ilə təqsirli bilinərək 1 il müddətinə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququndan məhrum edilməklə və qazancının 15 faizi dövlətin nəfinə tutulmaqla 1 il müddətinə islah işlərinə cəlb olunub.

ELBRUS

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2015-ci ilin yanvar-oktyabr aylarında:**

- Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı **9,6%** artmışdır.
- Pərakəndə ticarət şəbəkəsindən əhaliyə **20393,1 milyon** manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən **5778,9 milyon** manatlıq pullu xidmət göstərilmişdir.
- İqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyər **5,2%** artmış, onun ÜDM-də xüsusi çəkisi son bir il ərzində **59,9%**-dən **69,2%**-dək yüksəlmişdir.
- Əsas kapitala **13.087,1 milyon** manat məbləğində vəsait yönəldilmişdir.
- Nəqliyyat müəssisələrində işləyən **73,6 min** muzdlu işçinin **72,1%-i** dövlət, **27,9%-i** qeyri-dövlət müəssisələrində çalışmışdır.

# Sürətli iqtisadi inkişafın təməli

*«Trend» agentliyi iqtisadiyyat və sənaye naziri Şahin Mustafayevin Milli Məclisin plenar iclasında 2016-cı il və növbəti 3 il üçün dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı söylədiyi nitq əsasında iqtisadi icmal nəşr etmişdir.*

Nazir bildirib ki, 2016-2019-cu illərdə Azərbaycan iqtisadiyyatına investisiyaların ümumi həcminin 66,1 milyard manat olacağı proqnozlaşdırılır. Neftin dünya bazar qiymətlərinin iki dəfədən çox aşağı düşməsi ölkənin gəlirlərinin azalması ilə nəticələnib: «Buna uyğun olaraq, növbəti ilin dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşu əvvəlki illərlə müqayisədə az proqnozlaşdırılıb ki, bu da ölkə iqtisadiyyatına digər mənbələr hesabına vəsaitlərin cəlb edilməsini, o cümlədən real sektorun maliyyələşdirilməsi istiqamətində əhəmiyyətli addımların atılmasını şərtləndirir».

Nazirin sözlərinə görə, gələn il investisiya qoyuluşlarının 18,8 mlrd. manat, o cümlədən xarici investisiyaların 8 mlrd. manat olacağı, neft sektoruna 8 mlrd., qeyri-neft sektoruna isə 10,8 mlrd. manat investisiya yatırılacağı gözlənilir: «Növbəti 3 ildə investisiyaların 47,3 mlrd. manat, o cümlədən xarici investisiyaların 15,4 mlrd. manat təşkil edəcəyi proqnozlaşdırılır».

Bildirilib ki, son illərdə olduğu kimi, 2016-cı ildə də iqtisadi artım qeyri-neft sektorunun hesabına təmin ediləcək: «Cari ilin sonuna qeyri-neft sahəsinin 5,9%, 2016-cı ildə isə 3,4% artacağı proqnozlaşdırılıb. Onun ümumi daxili məhsuldakı payının 2014-cü ildəki 61%-dən 2016-cı ildə 71,8%-ə çatacağı proqnozlaşdırılır. Tikinti sektoru nəzərə alınmasa, qeyri-neft sahəsi 5,3%, qeyri-neft ticari sektorlar isə 7,2% artacaq». Qeyd olunub ki, qarşıdakı illərdə qeyri-neft sektorunun inkişafında, bu sahədə istehsal və ixrac potensialının artırılmasında qeyri-neft sənayesi əhəmiyyətli rol oynayacaq: «Sənayenin inkişafına dövlət dəstəyi tədbirləri daha da gücləndiriləcək, yeni istehsal sahələrinin yaranması və rəqabətqabiliyyətli məhsul istehsalının artırılması diqqət mərkəzində saxlanılacaq. Bütövlükdə, qeyri-neft sənayesi üzrə 2016-2019-cu illər üzrə orta hesabla 9,2% artıma nail olunacağı proqnozlaşdırılır».

Nazirin sözlərinə görə, qeyri-neft sektorunun aparıcı sahələrindən olan aqrar sektor üzrə 2016-cı ildə 5,5%, növbəti 3 ildə orta hesabla 5,2% artım proqnozlaşdırılır: «Son illərdə təkcə dövlətin güzəştli kreditləri hesabına aqroparkların, ən müasir texnologiyalara əsaslanan quşçuluq, intensiv bağçılıq və üzümçülük təsərrüfatlarının, cins heyvandarlıq və müasir istixana komplekslərinin, logistik mərkəzlərin yaradılması istehlak bazarının sabitləşməsinə, ixrac potensialının artırılmasına, idxaldan asılılığın azalmasına, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verməkdədir».

Ş.Mustafayev deyib ki, dövlət investisiyalarının azalması fonunda tikinti sektorunda gələn il 4,6% azalma proqnozlaşdırılır. Bildirilib ki, xidmət sektorunda 2016-cı ildə 4,8%, növbəti üç ildə isə orta hesabla 5,1% artım proqnozlaşdırılır və bu sektorun ÜDM-də payının 2014-cü ildəki 33,4%-dən 2019-cu ildə 40,9%-ə qədər artacağı gözlənilir: «Turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması, müasir standartlara cavab verən infrastrukturun yaradılması, eyni zamanda dünya səviyyəli idman və mədəni tədbirlərin keçirilməsi ölkəmizin beynəlxalq arenada tanınmasına, turizmin inkişafına səbəb olacaq, 2016-2019-cu illər ərzində turizm sektorunun orta hesabla 12,5% artacağı proqnozlaşdırılır».

Ümumiyyətlə, 2016-cı ildə ölkə üzrə iqtisadi artım 1,8%, inflyasiya 3,3%, növbəti üç ildə isə orta illik artım tempi 3,7% səviyyəsində proqnozlaşdırılır: «Ölkənin ödəmə qabiliyyətini müəyyən edən tədiyyə balansının növbəti illərdə də müsbət saldosu qorunacaq. 2016-cı ildə ticarət balansı 7,6 milyard ABŞ dolları, cari hesab balansı isə 1,9 milyard dollar müsbət saldo ilə proqnozlaşdırılıb».

Neft sektorunun gələn il 1,7% azalacağı, neft hasilatının 40,7 mln. ton, növbəti illərdə isə orta hesabla 40,2 mln. ton olacağı gözlənilir: «Neftin qiyməti ilə bağlı beynəlxalq maliyyə-iqtisadi təşkilatların və neft hasil edən ölkələrin proqnozları təhlil edilib və neftin 1 barelinin qiyməti gələn il və növbəti 3 il üçün hesablamalarda 50 ABŞ dolları qəbul edilib».

# Kart ödənişləri üzrə milli şəbəkə yaradılır

Mərkəzi Bank (MB) ölkədə ödəniş sistemlərinin təhlükəsizliyinin möhkəmləndirilməsi, həmçinin milli ödəniş sisteminin əsas komponentlərindən olan Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sisteminin (AZİPS) fəaliyyətinin beynəlxalq infrastrukturlardan asılılığının aradan qaldırılması məqsədilə «Milli ödəniş sisteminin modernizasiyası» layihəsinə start verib.

MB İdarə Heyəti sədrinin müavini Alim Quliyevin sözlərinə görə, layihə baş verə biləcək fövqəladə hallar zamanı ödəniş sistemlərinin işinin davamlılığını təmin edəcək, AZİPS-in və Xırda Ödənişlər üzrə Hesablaşma və Klirinq Sisteminin (XÖHKS) sabit və davamlı fəaliyyətini gücləndirəcək. Layihə çərçivəsində 2016-cı ildə XÖHKS-də beynəlxalq təcrübədə geniş tətbiq olunan «birbaşa debetləşmə» ödəniş alətinin istifadəsi üçün müvafiq funksional imkan yaradılacaq, sistemdə informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə MB-nin Bank Sertifikat Xidmətləri Mərkəzinin təqdim etdiyi elektron imzadan istifadə olunacaqdır.

A.Quliyev gələn il nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində də təsirli addımların atılacağını bildirib. Pərakəndə nağdsız ödənişlərin inkişafını sürətləndirmək məqsədilə icrasına başlanılacaq «Kart ödənişləri üzrə milli şəbəkə» layihəsi ölkədə buraxılan ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə məlumatların emalı prosesinin və əməliyyatların effektivliyinin artırılmasını və təhlükəsizliyin yüksəldilməsini nəzərdə tutur. Layihə çərçivəsində prosessinq fəaliyyəti göstərən infrastrukturlar arasında əlaqə yaradılacaq və bununla da bütün ödəniş kartları ilə ölkə daxilində aparılan əməliyyatların emalı yeni infrastruktur vasitəsilə həyata keçiriləcəkdir.



Layihənin mühüm istiqamətlərindən biri regionlarda milli ödəniş sistemi infrastrukturunun möhkəmləndirilməsidir. Bütün regionlarda maliyyə xidmətlərindən istifadə imkanlarının yaradılması, əhali və iqtisadi subyektlər arasında nağdsız hesablaşmaların genişləndirilməsi üçün aidiyyəti qurumlarla birgə əlavə tədbirlər planlaşdırılır. Vergi, rüsum, icarə haqqı və digər büdcə ödənişlərinin, həmçinin kommunal, rabitə və digər kütləvi xidmətlər üzrə ödənişlərin toplanılmasını təmin edən «Hökumət ödəniş portalı»nın (HÖP) da əhatə dairəsi genişləndiriləcək. Gələn il Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nəzdində yaradılmış «ASAN xidmət» mərkəzlərində fəaliyyət göstərən dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlər üzrə ödənişlərin HÖP vasitəsilə qəbul olunması, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən yaradılmış «Elektron hökumət» informasiya portalının bu infrastruktura inteqrasiyası istiqamətində intensiv işlər aparılacaq. Nəticədə ödəniş sistemlərindən istifadə edən qurumların sayının iki dəfə artırılması gözlənilir.

E.CƏFƏRLİ

# Daşınmaz əmlakın onlayn qeydiyyatı

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) ölkədə daşınmaz əmlakın qeydiyyatı prosesinin asanlaşdırılması, vətəndaşlara bu sahədə daha rahat, çevik və şəffaf xidmətlərin göstərilməsi ilə bağlı tədbirləri davam etdirir.

Daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatı sahəsində mühüm yeniliklərdən biri də daşınmaz əmlakların yeni sahiblərinin adına rəsmiləşdirilməsinin onlayn həyata keçirilməsidir. Daşınmaz əmlakın təkrar qeydiyyatını maksimum dərəcədə sadələşdirən bu yenilik Komitə tərəfindən istifadəyə verilən «Daşınmaz əmlakın təkrar qeydiyyatında yeni onlayn xidmət» sayəsində mümkün olub. Bu xidmət notariuslarda bağlanılan alqı-satqı müqavilələrinin onlayn rejimdə birbaşa Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə (DƏDRX) göndərilməsini təmin edir. Alqı-satqı müqavilələri notariusdan onlayn formada birbaşa DƏDRX-ya göndərildiyinə görə, vətəndaşların sənədləşmə üçün yenidən ərazi qeydiyyat idarəsinə gəlməsinə ehtiyac qalmır. İndi əmlakın yeni sahibi qeydiyyat idarəsinə cəmi bir dəfə - öz adına olan «çıxarışı» götürməyə gedir.

Bu, yalnız əmlakın alqı-satqısına deyil, vərəsəlik, bağışlanma və digər hallara da aiddir. Başqa sözlə, notariat kontorlarında daşınmaz əmlakın alqı-satqısı, vərəsəlik, bağışlanma və s. əməliyyatlar zamanı bağlanan müqavilə notariusdan birbaşa DƏDRX-nın ərazi idarəsinə göndərilir və əmlak avtomatik olaraq öz yeni sahibinin adına qeydiyyatdan keçir. Bu yenilik daşınmaz əmlakın qeydiyyatının əhəmiyyətli dərəcədə sadələşdirmiş, qeydiyyat prosedurlarının sayını minimuma endirərək vaxt itkisi və əlavə müraciətləri aradan qaldırmışdır.

Daşınmaz əmlakın təkrar qeydiyyatı ilə bağlı alqı-satqı müqaviləsi bağlandıqdan sonra müqavilə barədə məlumatlar onlayn rejimdə Daşınmaz Əmlakın Milli Qeydiyyatı Sisteminə (MQS) ötürülür. Sistemdə avtomatik şəkildə daşınmaz əmlakın qeydiyyatı ilə bağlı ərizənin nömrəsi və çıxarışın hazır olduğu tarix göstərilir. Bu barədə vətəndaşa elektron və kağız formada bildiriş verilir. Yeni xidmətdən istifadə zamanı dövlət rüsumu və xidmət haqqını da onlayn qaydada ödəmək mümkündür. Ümumiyyətlə, ödənişləri bank, «Elektron hökumət» portalı, ödəniş terminalları vasitəsilə apamaq mümkündür. Alqı-satqı zamanı isə ərizəçi birbaşa notariat kontorunda quraşdırılmış onlayn ödəniş terminallarında ödənişlər edə bilir.

Gözlənilir ki, yeni onlayn xidmət təkrar daşınmaz əmlak bazarında aktivliyi artıracaq, alqı-satqı proseslərinin daha operativ həyata keçirilməsini təmin edəcək. Alqı-satqı əməliyyatlarının, demək olar ki, avtomatik baş verməsi və vaxt itkisinin aradan qalxması əmlak sahiblərini daha çevik qərar verməyə həvəsləndirəcək. Bundan əlavə, alqı-satqı müqavilələrinin avtomatik şəkildə qeydiyyat idarəsinə göndərilməsi əmlak bazarında çoxdan bəri mövcud olan başqa bir problemin həllinə də imkan yaradacaq. Belə ki, bəzi hallarda alqı-satqıdan sonra əmlakın yeni sahibi əmlakı öz adına rəsmiləşdirməyə tələsmirdi və nəticədə həmin əmlak faktiki olaraq dövriyyədən kənarda qalırdı, bu səbəbdən əməliyyatların aparılması, o cümlədən vərəsəliyə ötürülməsi çətinləşirdi. ƏMDK-nın yeni xidməti ilə qeydiyyatın avtomatik həyata keçirilməsi isə belə halların qarşısını almağa imkan yaradacaq.

FƏXRİYYƏ

# İşsizlər sığorta olunacaq

## *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işsizlikdən icbari sığorta sistemi yaradılması ilə bağlı qanun layihəsi hazırlayıb*

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, hər il Dövlət Sosial Müdafiə Fondunun büdcəsindən işsizlik müavinətinin verilməsi üçün müəyyən qədər vəsait ayrılır: «Bu il həmin vəsaitin həcmi 5,9 milyon manat təşkil edib. Əlbəttə, əhalisinin sayı 10 milyona yaxınlaşan bir ölkə üçün bu, çox aşağı rəqəmdir. Biz düşünürük ki, dünyanın əksər inkişaf etmiş ölkələrindəki kimi, Azərbaycanda da işsizlik sığortası müstəqil olmalı və hər bir işləyən adam işsiz qala biləcəyi haldan özünü sığortalamalı, bu halda hansı məbləğdə işsizlik müavinəti ala biləcəyini və bunun hansı müddətdə davam edəcəyini əvvəlcədən bilməlidir».




Nazir qeyd edib ki, bütün bunları özündə əks etdirən qanun layihəsi hazırlanıb: «Yaxın günlərdə qanun layihəsini hökumətə təqdim edəcəyik». Qanun layihəsi ölkə ərazisində qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan şəxslər üçün icbari sığorta sahəsində hüquqi, iqtisadi və təşkilati əsasları müəyyən edir.

Aydınlıq üçün qeyd edək ki, işsizlikdən sığorta işsizliyə görə verilən müavinətdən fərqlənir. İşsizlikdən sığorta işsiz qalmış şəxslərə onların özləri tərəfindən əmək fəaliyyəti dövründə etdikləri ödəmələr hesabına müəyyən müddətə sığorta haqqı almağa imkan verir.

İqtisadçı ekspert Pərviz Heydərov bildirmişdir ki, ölkəmizdə indiyədək işsizlikdən icbari sığorta ilə bağlı belə bir sosial müdafiə üsulu olmayıb: «İşsizlik statusunun müəyyən edilməsi və buna müvafiq olaraq müavinət verilməsi mexanizmi vardır və bu və ya digər çatışmayan cəhətlərinə baxmayaraq, uğurla fəaliyyət göstərməkdədir. İşsizlikdən icbari sığorta sistemi isə bundan daha təkmil variantdır. Bu, işçinin işəgötürən tərəfindən daha geniş aspektdə sığortalanmasını təmin edir. Məqsəd isə işçinin işsiz statusu qazandığı şəraitdə maddi cəhətdən daha mükəmməl sığortalanmasını təmin etməkdir».

Ekspertin rəyinə görə, bu məsələ tibbi sığorta qədər əhəmiyyətlidir və vacib xarakter daşımaqdadır: «Yeni qanun layihəsi sayəsində ölkəmizdə əmək şəraitinin daha da yaxşılaşmasına nail olunacaq, əməyin ödənişi sisteminə nəzarət artmaqla şəffaflıq güclənəcək. Bu, əməyin keyfiyyət səviyyəsini də müəyyən etməyə imkan verəcək, işsiz statusu daşıyanların peşə qabiliyyətlərini aşkarlamağa imkan yaradacaq».

Layihənin bir müsbət məqamı da vergidənyayınma hallarının qarşısının alınmasına müsbət təsiri ilə bağlıdır. Sirr deyil ki, bəzi şirkətlər əməkhaqqını düzgün qeyd etmir və vergidən yayınır. Yeni qanun layihəsi isə əmək müqaviləsindəki maddələrin dəqiq göstərilməsi üçün stimul yaradır. Bu mexanizm işə düşəndən sonra muzdlu işçilər əməkhaqlarının olduğu kimi yazılmasını tələb etməyə başlayacaqlar.

**F.İKRAMQIZI**

# Əmək bazarına inteqrasiya üçün virtual müəssisə

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankının birgə həyata keçirdiyi «Sosial müdafiənin inkişafı layihəsi» çərçivəsində virtual müəssisənin açılışı olub. Nazir Səlim Müslümov gənclərin məşğulluğunun təmin olunması, peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunması sahəsində görülən işlərdən danışaraq bildirib ki, tələbə və məzunların uğurlu əmək fəaliyyətinə başlaması və karyeralarını məqsədyönlü şəkildə davam etdirmələri üçün əsas şərtlərdən biri onların əmək bazarının tələblərinə uyğun səviyyədə bacarıqlara, lazımi təcrübəyə, işgüzar keyfiyyətlərə malik olmalarıdır: «Bununla bağlı olaraq, hazırda dünyanın bir çox ölkələrində interaktiv tədrisin əyani təcrübə əsasında təkmilləşdirilməsinə, tələbə və məzunların öz ixtisasları ilə bağlı əmək bazarında işgüzar bacarıqlar qazanmasına xidmət edən virtual müəssisələr, yəni təcrübə şirkətləri fəaliyyət göstərir. Artıq Azərbaycan da virtual müəssisələrin üzvlər şəbəkəsinə qəbul edilib və ötən ildən etibarən ölkəmizdə ilkin olaraq Azərbaycan Dövlət İqtisad Universitetinin və Xəzər Universitetinin bazalarında bu təcrübənin tətbiqinə, virtual müəssisələrin yaradılmasına başlanılıb».

Bildirilib ki, bunun üçün müvafiq otaqlar ayrılaraq kompüter və digər lazımi avadanlıqlarla təchiz edilib, təcrübə müəssisələrində çalışacaq müəllim heyəti üçün beynəlxalq ekspertlər tərəfindən təlimlər keçirilib. İşlərin təşkili, habelə aidiyyəti proqram təminatı barədə «Europen-Pen İnternational» şirkətindən məlumat əldə olunub: «Tələbə və məzunlar burada real iş yerində olduğu kimi fəaliyyət göstərəcək, öz ixtisasları ilə bağlı əmək bazarında əmək şəraiti tələbləri çərçivəsində praktik bacarıq və vərdişlərə yiyələnəcəklər. Nəticədə gələcəkdə əmək bazarında özlərinə asan şəkildə yer tuta biləcəklər».

Qeyd edək ki, hazırda respublika əhalisinin 28 faizini təşkil edən 15-29 yaşlı vətəndaşlar arasında işsizlik səviyyəsi ötən illə müqayisədə 0,4 faiz azalaraq 9,7 faizə enib ki, bu da dünyada ən aşağı göstəricilərdən hesab edilir. Ölkədə bu yaşda olanlar arasında iqtisadi fəallıq səviyyəsi 47,2 faizə yüksəlib.

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Azərkosmos» 2017-ci ildə üçüncü - «Azerspace 2»ni orbitə buraxacaq.

Belarus şirkətləri sənaye sahəsində ölkəmizlə birgə müəssisə yaratmağı planlaşdırır.

2015-ci ilin 10 ayında Azərbaycan əhalisinin gəlirləri 33,5 milyard manata çatıb və bu da ötən illə müqayisədə 5,7% artıb.

Azərbaycanda bankların nizamnamə kapitalı beş yüz milyon manatadək artırılacaq.

Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda kənd təsərrüfatına yeni maliyyə vəsaiti ayırmaq niyyətindədir.

Azərbaycan və Fransa regionlararası Əməkdaşlıq Şurası yaratmağı planlaşdırır.

Azərbaycanın şimal bölgəsində ilk «Fermer evi» istifadəyə verilib.

Qaradağ rayonunun Sahil qəsəbəsində yeni neft-kimya sənayesi avadanlıqları istehsalı zavodu inşa edilir.

# Uzun prosedurlar aradan qaldırılır

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən «Torpaq münasibətlərinin tənzimlənməsində «bir pəncərə»: bələdiyyə torpaqlarının qeydiyyatı və idarəçiliyində optimal yanaşmalar» mövzusunda işgüzar forumun keçirilməsində məqsəd torpaq münasibətlərinin tənzimlənməsində tətbiq edilən «bir pəncərə» prinsipinin mahiyyəti, bələdiyyə torpaqlarının qeydiyyatında və idarəçiliyində əhəmiyyəti barədə ictimaiyyəti məlumatlandırmaq olmuşdur.

Komitənin sədr müavini Rafiq Cəlilov bildirmişdir ki, respublika üzrə mülkiyyət hüquqlarının təmin edilməsində vətəndaş və bələdiyyə iştirakı tələb olunan bütün hüquqi əməliyyatlar bir ünvanda - Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin müvafiq ərazi idarələrində aparılır. Bələdiyyələrə və vətəndaşlara çıxarışların verilməsi, kadastr məsələləri, çöl-ölçmə işləri, texniki inventarlaşdırma, texniki sənədlərin tərtibi kimi işlər «bir pəncərə»də həll olunur. Bura torpaqların təyinatı, istifadəsi, icarəsi, mülkiyyətə verilməsi, kateqoriyasının dəyişdirilməsi kimi torpaq məsələlərində rəylərin alınması da aiddir: «Artıq bələdiyyələr, vətəndaşlar, fiziki və hüquqi şəxslər onlara məxsus daşınmaz əmlakı və torpaq sahələrini yalnız bir ünvanda qeydiyyata aldıra bilirlər. Müraciətdən sonrakı proses Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin öz fəaliyyətini komitənin digər qurumları ilə elektron qaydada əlaqələndirməklə həyata keçirilir. Bununla da vətəndaş, eləcə də bələdiyyə hər hansı sənədləşdirmə işində iştirak etmir, hər hansı qurumla təmasda olmurlar».

Qeyd edilib ki, «bir pəncərə» prinsipinin tətbiq edilməsi ilə əvvəllər mövcud olan uzun prosedurlar aradan qalxıb. Nəticədə torpaq və əmlak idarəçiliyində operativlik, rahatlıq, əlçatanlıq və şəffaflıq kifayət qədər yüksəlib.

### *Sənədsiz tikililəri sənədləşdirmək mümkün olacaq*

Torpaqların istifadəsi, mühafizəsi və qorunmasına dövlət nəzarətində yeni prinsiplər və mexanizmlər tətbiq edilir. Torpaq qanunvericiliyinə zidd olan özbaşına tikintilərin aparılmasının qarşısının alınması istiqamətində tədbirlər gücləndirilib.

R.Cəlilov qeyd edib ki, ölkə üzrə kadastr işləri yekunlaşdıqdan, torpaqlar inventarlaşdırıldıqdan sonra qanunsuz, sənədsiz tikililər də inventarlaşdırılacaq və kadastr xəritələrinə yerləşdiriləcək. Bundan sonra müvafiq qurumlarla birgə müzakirələr aparılacaq: «Ərazi mühafizə zolaqlarına düşmürsə, tikililər təyinatına uyğundursa, qadağan olunmuş ərazilərdə tikilməyibsə və infrastruktur altına düşmürsə sənədləşdirilmə barədə qərar veriləcək».

### *5 il ərzində 1921 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib*

Tədbirdə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəhbəri Mehdi Səlimzadə «Bələdiyyə mülkiyyətinin və əmlakının qanunvericiliyə uyğun tənzimlənməsi» mövzusunda çıxış edərək bildirib ki, 2015-ci ilin ilk yarısında təxminən 300 hektara yaxın kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin qanunsuz satılması müəyyən olunub və bu qərarlar ləğv olunub. Bu məsələlərlə bağlı 2011-2015-ci illərdə 2263 inzibati xəta protokolu tərtib edilib və həmin protokollar əsasında 1921 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib: «Daxil olmuş müraciətlər əsasında aparılan araşdırmalar nəticəsində 27 bələdiyyənin fəaliyyətinə kənd təsərrüfatı təyinatlı torpaqların ayrılması zamanı yol verilmiş cinayət xarakterli faktlar aşkar edilmiş və hüquqi qiymət verilməsi üçün aidiyyəti orqanlara təqdim olunmuşdur. Bundan başqa, iki halda vətəndaş tərəfindən bələdiyyə mülkiyyətindəki torpaq sahəsinin zəbt olunması faktı, bir halda isə aqrar-islahat komissiyası tərəfindən torpaq sahəsinin qanunsuz mülkiyyətə ayrılması barədə toplanmış materiallar prokurorluq orqanlarına göndərilmişdir. Həmin materiallar əsasında 20 bələdiyyə sədri, 1 bələdiyyə üzvü və 1 bələdiyyə qulluqçusu cinayət məsuliyyətinə cəlb edilmişdir».

**AYTƏN**

# İpoteka krediti: faktlar və rəqəmlər

*Prezident İlham Əliyev bu günlərdə Azərbaycan İpoteka Fondunun (AİF) yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus «Azərbaycan İpoteka Fondu» Açıq Səhmdar Cəmiyyətinin (ASC) yaradılması barədə fərman imzalayıb.*

ASC-nin yaradılmasında məqsəd, ilk növbədə, gənc ailələrin, aztəminatlı ailələrin mənzillə təmin olunması sahəsində əsaslı dönüş yaratmaqdır. Maliyyə naziri Samir Şərifovun sözlərinə görə, «Azərbaycan İpoteka Fondu» ASC ölkədə ipoteka kreditinin genişlənməsi üçün gələcəkdə daxili bazardan 200 milyon manat cəlb etməyi planlaşdırır. Dövlət büdcəsindən isə növbəti ildə ipotekanın maliyyələşdirilməsinə 50 milyon manat ayrılacaq.

İndiyə qədər AİF-in xətti ilə verilən ipoteka kreditləri bütün təbəqələrdən olan vətəndaşların mənzillə təmin olunmasına imkan yaratmasa da, bir qrup insanlara belə bir şərait yaradıb. Son 5 il ərzində yenidən maliyyələşən ipoteka kreditlərinin illər üzrə dinamikasına nəzər saldıqda görürük ki, kreditlərin məbləği 2010-cu ildə 175.915.400 manat, 2011-ci ildə 252.934.900, 2012-ci ildə 344.086.600, 2013-cü ildə 430.900.400, 2014-cü ildə 557.370.600 manat təşkil edib. 2015-ci ilin birinci rübündə yenidən maliyyələşən ipoteka kreditləri 572.749.230 manat, ikinci rübdə 595.060.764, üçüncü rübdə isə 632.315.650 manat təşkil edib.

2010-cu ildə verilən kreditlərdən 161.367.380 manatı adi ipoteka kreditləri, 14.547.950 manatı güzəştli ipoteka kreditləri üzrə olub. Digər illər üzrə, müvafiq olaraq, 2011-ci ildə 230.076.460 - 22.858.470 manat, 2012-ci ildə 297.033.110 - 47.053.530 manat, 2013-cü ildə 351.167.840 - 79.732.570 manat, 2014-cü ildə 435.156.610 - 130.195.400 manat təşkil edib. 2015-ci ilin birinci rübündə verilən kreditlərdən 443.247.710 manatı adi, 137.482.900 manatı güzəştli, ikinci rübdə adi- 447.681.220, güzəştli - 146.102.990 manat, üçüncü rübdə adi - 467.943.920, güzəştli -163.095.170 manat təşkil edib.

2015-ci ilin üçüncü rübündə ipoteka kreditləri alanların 47,3%-i dövlət, 52,7%-i özəl sektorun payına düşür. İpoteka krediti alanların 31,7%-i subay, 68,3%-i evli olub. İpoteka kreditləri alanların aylıq gəlirlərinə görə pay bölgüsü isə belədir: aylıq gəliri 300 manat olan borcalanlar 2,3%, 300-500 manat olanlar 7,1%, 500-700 manat olanlar 17,7%, 700-900 manat olanlar 20,9%, 900-1100 manat olanlar 15,5%, 1100 manatdan yuxarı olanlar isə 36,5% təşkil edib. 3-cü rüb ərzində güzəştli kateqoriyaya aid borcalanların 78,6%-i hərbi qulluqçular, 9,1%-i dövlət qulluqçusu, 8,2%-i məcburi köçkün, 2%-i alimlik dərəcəsi olan, 1,6%-i idmançı, 0,4%-i isə şəhid ailəsi olub.

**A.NƏBİYEVA**

**Borcalanların yaşlarına görə pay bölgüsü (3-cü rüb, 2015-ci il)**




**Bakı şəhərində ipoteka kreditlərinin inzibati rayonlar üzrə bölgüsü (3-cü rüb, 2015-ci il)**





Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Şou-biznecə aid fəaliyyətlərlə məşğul olan şəxclərin vergiyə cəlb edilməci (gəlir və xərclərinin təhlili)

Hörmətli oxucular, şou-biznesə aid fəaliyyətlərlə məşğul olan müğənnilərin (müğənniliklə məşğul olan fiziki şəxslərin) xərcləri barədə təhlillərimizi davam etdiririk.

***Musiqi alətləri və avadanlıqlarla bağlı xərclər.*** Ansambl üzvlərinin (musiqiçilər qrupunun) istifadə etdiyi musiqi alətləri, həmçinin musiqi təqdimatı zamanı istifadə olunan digər avadanlıqlar (səsucaldıcılar, mikrofonlar və digər cihazlar) üzərində hüquqi münasibət məsələləri həll edilməlidir. Həmin alətlər və avadanlıqların məxsus olduğu istiqamətləri 4 yerə bölmək olar. Alət və avadanlıqlar ya müğənniyə, ya musiqiçi qrupunun üzvlərinə, ya ifa edilən yerə (obyektə), ya da tamamilə başqa hüquqi və ya fiziki şəxslərə məxsus ola bilər. Hər bir hal üçün müğənni tərəfindən müvafiq müqavilələrin bağlanması zəruridir. Əgər alət və avadanlıqlar obyektə (şadlıq sarayı, restoran, kafe, bar və digər əyləncə obyektlərinə) məxsusdursa, ifaçılıq xidmətlərinin göstərilməsi üçün obyektin sahibi (rəhbərliyi) ilə bağlanılan «müğənnilik xidmətlərinin göstərilməsi müqaviləsi»ndə alətlər və avadanlıqların obyekt tərəfindən təmin olunması barədə müddəalar nəzərdə tutula bilər. Belə halda, alət və avadanlıqlarla bağlı müğənninin fəaliyyətində xərclər yaranmır. Əgər alət və avadanlıqlar musiqiçilərə məxsusdursa və müğənni müsuqiçiləri əmək müqaviləsi çərçivəsində işçi kimi işə qəbul etmişdirsə, belə halda musiqiçilərin (ansambl üzvlərinin) ifa zamanı istifadə etdiyi musiqi alətləri üzərində də hüquqi münasibət məsələləri həll olunmalıdır. Ya əmək müqaviləsində işçinin öz əmlakından istifadə hüququnu bildirən müddəa əks etdirilməlidir, ya da musiqiçi fiziki şəxslə müğənni fiziki şəxs arasında həmin alət və avadanlıqlardan istifadə haqqında icarə müqaviləsi bağlanılmalıdır. Əgər alət və avadanlıqlar başqa hüquqi və ya fiziki şəxsə məxsusdursa, həmin hüquqi və ya fiziki şəxslə müğənni arasında alət və avadanlıqlardan istifadə haqqında icarə müqaviləsi bağlana bilər. Əgər alət və avadanlıqlar müğənninin özünə məxsusdursa (öz mülkiyyətindədirsə) həmin alət və avadanlıqlara amortizasiya tətbiqi yolu ilə xərc hesablamaları aparıla bilər. Deməli, müğənninin ifa xidmətləri zamanı istifadə etdiyi alət və avadanlıqlarla bağlı xərclər ya amortizasiya xərcləri şəklində, ya da icarə xərci şəklində ifadə oluna bilər.

***Musiqi kliplərinin video çəkilişi və musiqi albomlarının hazırlanması xərcləri.*** Adətən, müğənnilər klip çəkilişlərini, musiqi səsyazmalarını, səsli və video şəklində musiqi albomlarının hazırlanmasını həyata keçirməsi üçün bu xidmətləri göstərən studiyalara müraciət edirlər. Belə studiyalar müğənninin özünə də məxsus ola bilər. Bu halda, müğənni öz studiyasında çalışan fiziki şəxslərlə əmək ödənişləri məqsədilə əmək müqaviləsi bağlamalı, studiyada istifadə olunan avadanlıqların və bütün digər alətlərin alışını rəsmiləşdirməli, həmin avadanlıqlara amortizasiya hesablamalı, studiyada istifadə olunan materialların (disklərin və çəkilişlə bağlı digər xammal və materialların) alışı ilə əlaqədar sənədləşmələri təmin etməlidir. Lakin çox hallarda müğənnilər başqa peşəkar studiyaların xidmətlərindən istifadə edirlər. Bunun üçün başqa fiziki şəxs (fərdi sahibkar) və ya hüquqi şəxs qismində fəaliyyət göstərən studiyalarla müğənni arasında xidmət müqaviləsi bağlanması zəruridir. Müğənni studiyaya ödədiyi xidmət haqqı üçün kassa mədaxil orderi və ya mədaxil qəbzi, həmçinin xidmətlərin təhvil-təslim edilməsi üçün akt tərtib olunaraq özünə təsdiq üçün təqdim etməsini studiyadan tələb etməlidir ki, bu xərclərin sənədləşdirilməsi təmin olunsun.

Xərclərlə bağlı bir məqama toxunaq. Müğənnilik (mahnı ifaçılığı) xidmətlərinin göstərilməsi zamanı çəkilən xərclərin xüsusiyyətinə əsasən göstərmək olar ki, belə xərclər daha çox nağd əməliyyatlar çərçivəsində baş verir. Ona görə də müğənnilər nağd əməliyyatların aparılması ilə bağlı qanunvericiliyin tələblərinə xüsusi diqqət yetirməlidirlər. Müğənni fiziki şəxs olan qarşı tərəflə (musiqiçi, prodüser, dekor ustası, studiya əməkdaşı və digər şəxslərlə) mülki-hüquqi müqavilə bağlanması üçün həmin qarşı tərəfdən VÖEN-in və şəxsiyyət vəsiqəsinin surətini də alması tövsiyə olunur. Belə VÖEN-i olan fiziki şəxslərlə müvafiq xidmətlərin göstərilməsinə dair müqavilələrin bağlanması hüquqi baxımdan tam düzgün hesab edilir. Lakin VÖEN təqdim etməyən və ya vergi orqanlarında sahibkarlıq fəaliyyətinin göstərilməsi üçün uçota alınmayan fiziki şəxslərlə mülki-hüquqi müqavilələrin bağlanmasına qanunvericilikdə qadağaların olmamasına baxmayaraq, belə müqavilə bağlamaqla müğənniyə xidmət göstərən qarşı tərəfin (musiqiçi, prodüser, dekor ustası və digərlər) qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs kimi məsuliyyət daşıması istisna deyildir. Bu hal müğənni üçün ciddi məsuliyyət yaratmır, lakin müğənni belə fiziki şəxslər barədə Vergi Məcəlləsinin 73-cü maddəsinin tələbinə uyğun olaraq vergi orqanına məlumat verməli və həmin şəxlərlə ödəmələr aparması və ödəmə mənbəyində vergi tutması barədə ödəmə mənbəyindən tutulan vergi bəyannaməsi təqdim etməlidir. Həmçinin, müğənni belə fiziki şəxslərə ödənilməli (hesablanan) haqdan ödəmə mənbəyində 25% məcburi sosial sığorta haqqı tutmalı və bu barədə DSMF-yə təqdim olunan hesabatlarda məlumatlar əks etdirməlidir.

**Davamı növbəti sayımızda**

## Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam edirik. Bu dəfə də yeni hesablar planında 201 saylı «Xammal və materiallar» hesabı üzrə materialların oğurlanması, fövqəladə hadisələr nəticəsində və ya hər hansı formada itkiyə uğraması ilə bağlı əməliyyatlara nəzər yetirəcəyik. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır.

***Misal.*** Mebel istehsalı ilə məşğul olan müəssisə tərəfindən 05 yanvar 2015-ci il tarixdə ƏDV ilə birlikdə 59000 (əsas hissə 50000 manat + ƏDV 900 manat) manat dəyərində taxta materialı alınmış və material anbarına qəbul edilmişdir. 07.01.2015 tarixdə mebel istehsal edilməsi üçün anbardan istehsalat sexinə 30000 manat dəyərində taxta materialı buraxılmışdır. Sex rəisinin yanvar ayının 31-i tarixinə verdiyi hesabata əsasən, tam istehsal olunan hazır məhsul (mebel) üçün istifadə edilən materialların dəyəri 23000 manat, o cümlədən təsdiqlənmiş normalar üzrə faktiki hazır məhsulun tərkibinə aid edilən hissə 22000 manat və material doğranarkən qırıntı (xırda dənələr) şəklində, həmçinin kiçik hissələrdən ibarət qalıqlar şəklində yararsız halda qalan materialın dəyəri 1000 manat müəyyən edilmişdir. 31 yanvar tarixinə sexdə qalan materialın həcmi sayılarkən aydın olmuşdur ki, materiallar üzrə 500 manat dəyərində çatışmazlıq vardır və bu çatışmazlığın günahkar maddi-məsul şəxslər rəhbərlik tərəfindən xəbərdarlıq edilməklə təsərrüfat fəaliyyətinin nəticələrinə (və ya sair əməliyyat xərclərinə) silinməsi barədə qərar qəbul edilmişdir. Digər tərəfdən, yanvar ayında güclü küləklər ucbatından anbarın dam örtüyü dağılmış və yağan yağış nəticəsində 2000 manat dəyərində taxta materialı xarab olduğundan istifadəyə tam yararsız hala gəlmişdir. Qanunvericiliyə uyğun olaraq, təbii fəlakət nəticəsində yaranan material itkisi üzrə akt tərtib edilmişdir. Bu əməliyyatlarla bağlı ikili yazılışlar aşağıdakı kimi olacaqdır:

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 05.01.2015 | 201, Xammal və materiallar | Materiallar (taxta) alınmışdır (malsatandan tam təhvil alınmışdır) - ƏDV-siz məbləğ | 50000 | |
| 05.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materiallar (taxta) alınmışdır (malsatandan tam təhvil alınmışdır) - ƏDV-siz məbləğ | | 50000 |
| 05.01.2015 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | 9000 | |
| 05.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | | 9000 |
| 07.01.2015 | 202, İstehsal məsrəfləri | Materiallar (taxta) mebel istehsal edilməsi üçün daxili qaimə tərtib edilməklə anbardan (məsələn, anbardar işləyən maddi-məsul şəxsdən) istehsalat sexinin rəisinə təhvil verilmişdir | 30000 | |
| 07.01.2015 | 201, Xammal və materiallar | Materiallar (taxta) mebel istehsal edilməsi üçün daxili qaimə tərtib edilməklə anbardan (məsələn, anbardar işləyən maddi-məsul şəxsdən) istehsalat sexinin rəisinə təhvil verilmişdir | | 30000 |
| 31.01.2015 | 204, Hazır məhsul | Təsdiqlənmiş normalar üzrə faktiki hazır məhsulun tərkibinə aid edilən materialın maya dəyəri | 22000 | |
| 31.01.2015 | 202, İstehsal məsrəfləri | Təsdiqlənmiş normalar üzrə faktiki hazır məhsulun tərkibinə aid edilən materialın maya dəyəri | | 22000 |
| 31.01.2015 | 204, Hazır məhsul | Təsdiqlənmiş normalar üzrə material doğranarkən qırıntı (xırda dənələr) şəklində, həmçinin kiçik hissələrdən ibarət qalıqlar şəklində yararsız hala düşən materialın maya dəyəri | 1000 | |
| 31.01.2015 | 202, İstehsal məsrəfləri | Təsdiqlənmiş normalar üzrə material doğranarkən qırıntı (xırda dənələr) şəklində, həmçinin kiçik hissələrdən ibarət qalıqlar şəklində yararsız hala düşən materialın maya dəyəri | | 1000 |
| 31.01.2015 | 731, Sair əməliyyat xərcləri | Sexdə çatışmazlıq (əskikgəlmə) nəticəsində itkiyə məruz qalan materialların maya dəyəri ilə uçotdan silinməsi | 500 | |
| 31.01.2015 | 202, İstehsal məsrəfləri | Sexdə çatışmazlıq (əskikgəlmə) nəticəsində itkiyə məruz qalan materialların maya dəyəri ilə uçotdan silinməsi | | 500 |
| 31.01.2015 | 731, Sair əməliyyat xərcləri | Əgər materiallar (taxta) malsatana ƏDV ödəməklə və əvəzləşdirmə hüququ əldə etməklə əldə olunmuşdursa və materialların əskik gəlməsi nəticəsində itkiyə məruz qalmışdırsa, həmin materialların uçot (maya) dəyərinə ƏDV hesablanır (500 x 18%) | 90 | |
| 31.01.2015 | 521, Vergi öhdəlikləri | Əgər materiallar (taxta) malsatana ƏDV ödəməklə və əvəzləşdirmə hüququ əldə etməklə əldə olunmuşdursa və materialların əskik gəlməsi nəticəsində itkiyə məruz qalmışdırsa, həmin materialların uçot (maya) dəyərinə ƏDV hesablanır (500 x 18%) | | 90 |
| 31.01.2015 | 761, Fövqəladə xərclər | Təbii fəlakət nəticəsində anbarda itkiyə uğramış materiallar uçot (maya) dəyəri ilə uçotdan silinir (ƏDV hesablanmadan) | 2000 | |
| 31.01.2015 | 201, Xammal və materiallar | Təbii fəlakət nəticəsində anbarda itkiyə uğramış materiallar uçot (maya) dəyəri ilə uçotdan silinir (ƏDV hesablanmadan) | | 2000 |

Cədvəldən göründüyü kimi, 23000 manat (o cümlədən təsdiqlənmiş normalar üzrə faktiki hazır məhsulun tərkibinə aid edilən hissə 22000 manat və material doğranarkən qırıntı (xırda dənələr) şəklində, həmçinin kiçik hissələrdən ibarət qalıqlar şəklində yararsız hala düşən materialın dəyəri 1000 manat) dəyərində materiallar hazır məhsulun maya dəyərinin tərkibinə aid edilmiş, 500 manat və 2000 manat dəyərində materiallar isə hazır məhsulun maya dəyərinə aid edilməyərək digər aidiyyəti xərclərə daxil olunmuşdur. Deməli, bizim misal üzrə 3 formada (1000 manat, 500 manat, 2000 manat) itkilər baş vermişdir və bu itkilərdən yalnız 500 manata Vergi Məcəlləsinin 159.5-ci maddəsi ilə ƏDV tətbiq edilmişdir.

## Yeni maliyyə çərçivəsinin hazırlanması planlaşdırılır

Dünya Bankının (DB) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Larisa Leşşenko Azərbaycanda sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədilə hökumətin atdığı addımları müsbət qarşıladığını, bu tədbirlərin sahibkarların hüquqlarının qorunması, onlara qarşı əsassız yoxlamaların aradan qaldırılmasında mühüm rol oynayacağını bildirib.

Dünya Bankının nümayəndəsi qeyd edib ki, dövlətin özəl biznesin inkişafına xidmət edən müxtəlif təşviqedici addımları daxili istehsalın artması, sahibkarların kredit resurslarını daha asan əldə etməsi, onların maraqlarının müdafiəsi baxımından çox əhəmiyyətlidir. Onun sözlərinə görə, DB bu istiqamətdə aparılan islahatların davamlı və səmərəli olması üçün tərəfdaşlıq etməyə hazırdır.

Vurğulanıb ki, inzibati maneələrin aradan qaldırılması ilə yanaşı, DB Azərbaycanda bank və maliyyə bazarının inkişaf etdirilməsi, bank nəzarətinin gücləndirilməsi, kapitallaşdırma və konsolidasiya prosesləri, rayonlarda və kiçik şəhərlərdə, kənd yerlərində əhalinin bank-maliyyə xidmətlərinə sərbəst çıxışının təmin olunması, regionlarda bankların filial və şəbəkələrinin sayının artırılmasını da vacib sayır.

Bildirilib ki, DB 2016-cı ildə də Azərbaycanda bir sıra layihələri maliyyələşdirməyi planlaşdırır. Qarşıdakı dövrdə özəl sektora dəstək, kiçik və orta sahibkarlığa maliyyə yardımı mexanizminin təkmilləşdirilməsi, bankların və kredit təşkilatlarının maliyyələşmədə aktiv iştirakının artırılması məqsədilə maliyyə resursları potensialının gücləndirilməsi və digər sahələrdə əməkdaşlığı gücləndirmək nəzərdə tutulur. Bank aqrobiznes sahəsində həyata keçirilən layihələrə dəstək vermək niyyətindədir və birgə əməkdaşlıq çərçivəsində yeni layihələrə imza atılacaq. Bu məqsədlə Azərbaycan hökuməti ilə DB arasında yeni maliyyə çərçivəsinin hazırlanması planlaşdırılır.

## vergi təqvimi

| DEKABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | **20** |
| 21 | **22** | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | 31 | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
22 dekabr - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2»və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.



beynəlxalq panoram

# Neft sahəsinə yeni vergi tətbiq oluna bilər



Rusiya Federasiyasının Maliyyə Nazirliyi əlavə gəlirlərə vergi tətbiq olunması haqqında qanun layihəsini ictimai müzakirəyə təqdim etmişdir. Maliyyə Nazirliyi 70%-lik vergi dərəcəsinin tətbiqini təklif edir. Vergi bazası xammalın hasilatından əldə olunmuş gəlirdən kapital və faktiki əməliyyat xərcləri, nəqliyyat xərcləri, ixracat rüsumu və faydalı qazıntıların hasilatına vergini çıxmaqla müəyyən ediləcək.

Sənəddə qeyd olunub ki, vergi şirkətin bütün xərcləri ödənildikdən və pul axınları üzrə 6% gəlir əldə edildikdən sonra alınmağa başlanacaq. Maliyyə Nazirliyinin fikrincə, vergi həm köhnə, həm də yeni yataqlar üçün tətbiq olunmalıdır. Xərclərə isə bəzi məhdudiyyətlər nəzərdə tutulur: əvvəlki illərin zərərlərini nəzərə almaqla belə, bütün xərclər bir barelə görə 20 dolları ötməməlidir. Xərclər gələcək dövrün bazasına keçirilə və inflyasiya həcmində indeksləşdirilə bilər. Maliyyə Nazirliyi yeni vergi ilə yanaşı, faydalı qazıntılar hasilatına verginin, ixracat rüsumunun və mənfəət vergisinin də saxlanmasını təklif edir.

Qeyd olunmalıdır ki, bu ilin yayında Dövlət Dumasına neft sahəsində 2016-cı ildən maliyyə nəticələrinə görə verginin tətbiqini nəzərdə tutan qanun layihəsi təqdim edilmişdi və sənəd hökumətin müsbət rəyini almışdı. Həmin qanun layihəsinə əsasən, maliyyə nəticələrinə görə vergi ödəyən şirkətlər Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergiləri ödəməkdə davam etməli idilər. Maliyyə nəticələrinə görə vergini ilkin mərhələdə «Qazpromneft», «Lukoyl», «Surqutneftqaz» və «Salım Petrolium» şirkətlərinin bir neçə pilot yataqlarında tətbiq etmək planlaşdırılır.

Pilot layihələr üzrə mənfəətə 60% vergi dərəcəsi müəyyən etmək və üstəlik 20%-lik mənfəət vergisi ödəmək təklif olunur. Bu vergi daxili dəniz sularında, Rusiya Federasiyasının dəniz sahələrində, kontinental şelfdə və Xəzər dənizinin Rusiyaya məxsus hissəsində yerləşən yataqlara tətbiq edilməyəcək.

## Xəbər lenti

**Avstraliya** Vergi İdarəsi kiçik və orta biznesin dəstəklənməsi üçün vergi ödənilməsi prosesinin asanlaşdırılması ilə bağlı müzakirələr aparmaq niyyətində olduğunu bəyan etmişdir.

**Səudiyyə Ərəbistan**ının Məşvərət Şurası (Məclis əş-Şura) istifadəsiz torpaqlara vergi qoyulması barədə təklifi qəbul etmişdir. Bu vergi torpaq sahiblərini öz ərazilərini genişləndirməyə təşviq etməklə ölkədə mənzil probleminin həllinə yönəldilib.

**Ukrayna** hökuməti gələn ildən Belarusdan idxal edilən mallar üçün (bu, ərzaq və spirtli içkilərdən başlamış traktor, soyuducu, mebel və s. kimi sənaye mallarına qədər böyük siyahını əhatə edir) xüsusi rüsum tətbiq edə bilər. Rüsumun məbləği malın gömrük dəyərinin 39,2%-i qədər nəzərdə tutulur. Ekspertlər bu yeniliyi Belarusun Ukraynada istehsal olunan qənnadı məhsullarına və pivəyə qoyduğu vergiyə qarşı atılmış analoji addım kimi qiymətləndirirlər.

**Belarus**da gələn ildən qaz və elektrik enerjisi xidmətləri üçün qiymətlərə 20%-lik ƏDV tətbiq olunması gündəlikdədir. Qeyd edək ki, hazırda əhali qaz və elektrik təchizatı üçün vergi güzəştindən faydalanır.

**Türkiyə** və **Sinqapur**un maliyyə nazirləri G20 ölkələrinin sammiti zamanı sərbəst ticarətlə bağlı ikitərəfli saziş imzalamışlar. Bu geniş əhatəli sazişə əsasən, yaxın illərdə iki ölkə arasında ticarətə tətbiq olunan vergilərin əksəriyyəti ləğv ediləcək. Sinqapur tərəfin bəyanatına görə, Türkiyə bu ölkədən idxal edilən mallara aid tariflərin 80%-ni ləğv edəcək və qarşıdakı 10 il ərzində bu rəqəm 95%-ə çatdırılacaq.

**Böyük Britaniya**da digər sənaye sahələri ilə müqayisədə pablar (ictimai iaşə müəssisələri) dövlət büdcəsinə daha böyük vergi ödəyirlər. Onların hər il ödədikləri verginin məbləği 7,3 mlrd. Fund-sterlinqə (11,4 mlrd. manat) yaxındır - bu məbləğ pabların illik dövriyyəsinin 34%-ni təşkil edir.

**«Deutsche Bank AG»**nin İsveçrə bölməsi ABŞ hökumətinin məhkəmə təqibindən yaxa qurtarmaq üçün 31 mln. dollar ödəyəcək. Bank amerikalılara vergidən yayınmağa kömək etməkdə ittiham olunurdu. Bankın yaydığı bəyanatda 2008-2013-cü illərdə «Amerika Birləşmiş Statlarının bəzi vergi ödəyicilərinə vergi yayındırmaqda və öhdəliklərini yerinə yetirməməkdə imkan yaratdığı» etiraf olunmuşdur.

Xarici ölkələrin təcrübəsi

# Polşa Respublikasının vergi sistemi: *digər vergi növləri*



*Polşada tonnaj, daşınmaz əmlak, vərəsəlik və hədiyyə vergiləri ilə yanaşı, aksizlər, transfer və digər vergi növləri də tətbiq edilir.*

***Tonnaj vergisi.*** Aidiyyəti vergi ödəyiciləri, məsələn, Polşa və ya digər Avropa iqtisadi zonası ölkələrinin rezidenti olan şirkətlər hər birinin xalis tonnajı 100 tondan çox olan gəmilərdən istifadə etməklə beynəlxalq kommersiya daşımaları fəaliyyəti ilə məşğul olduqları üçün ümumi qayda üzrə mənfəət vergisi əvəzinə tonnaj vergisi ödəmək hüququna malikdirlər. Tonnaj vergisi rejimini seçən vergi ödəyiciləri 10 il müddətində bu rejimdən imtina edə bilməzlər.

Vergitutma bazası gəminin xalis tonnajına əsasən müəyyən edilən gündəlik dərəcənin gəminin xidmət göstərdiyi günlərin sayına vurmaqla müəyyən edilir. Bu cür vergitutma bazasından vergi ümumi dərəcəyə əsasən hesablanır.

***Daşınmaz əmlak vergisi.*** Bu, yerli orqanlara ödənilən illik vergidir. Bütün binalar, eləcə də torpaq üçün vergitutma bazası onların sahəsi hesab olunur. Stasionar qurğular üçün amortizasiya dəyəri nəzərə alınır. Vergi dərəcələri və maksimum hədd yerli orqanlar tərəfindən müəyyən edilir. 2014-cü il yanvarın 1-dən daşınmaz əmlak üzrə yerli vergilərin maksimum illik dərəcələri aşağıdakı kimidir:

- sahibkarlar tərəfindən istifadə olunan torpağın hər kvadratmetrinə - 0,24 dollar;
- digər torpaq sahələrinin hər kvadratmetrinə - 0,12 dollar;
- yaşayış binalarının hər kvadratmetrinə - 0,20 dollar;
- sahibkarlar tərəfindən istifadə olunan binaların hər kvadratmetrinə - 6,24 dollar;
- digər binaların hər kvadratmetrinə - 2,10 dollar;
- stasionar qurğular üçün onların dəyərinin 2%-i.

Xərclər vergiyə cəlb olunan gəlirin əldə edilməsi məqsədilə çəkildikdə mənfəət vergisi məqsədləri üçün daşınmaz əmlak vergisi, adətən, gəlirdən çıxılır. Polşada yerləşən daşınmaz əmlakın satışı və mübadiləsi üzrə mülki hüquqi əməliyyatlar üzrə vergi əmlakın bazar dəyərinin 2%-i qədərdir. Digər mal və əmlaka münasibətdə isə bu dərəcə 1%-dir.

***Vərəsəlik və hədiyyə vergiləri.*** Daşınmaz əmlak üzrə hüquqların əldə edilməsi və digər şəxsə məxsus daşınmaz əmlakın sərəncama alınması da daxil olmaqla, Polşada yerləşən daşınar və ya daşınmaz əmlakı miras və ya hədiyyə şəklində əldə edən fiziki şəxslər həmin əmlakın onlara çatan hissəsi üzrə vergiyə cəlb olunurlar. Yuxarıda qeyd olunan, lakin xaricdə yerləşən əmlakı əldə edən Polşa vətəndaşları və ya Polşa rezidenti olan şəxslər də vergi öhdəliyi daşıyırlar. Hədiyyəni və ya mirası alan şəxs vergini ödəməyə borcludur, onları təqdim edən şəxs isə birgə və ya fərdi qaydada öhdəlik daşıya bilər. Əməliyyatlarda notarius iştirak etmişdirsə, o, vergini ödəmə mənbəyində tutmağa borcludur. Vəfat etmiş - hədiyyə verən şəxs və varis - hədiyyə alan şəxs arasında olan münasibətlər üç kateqoriyaya bölünür:

| | |
|---|---|
| **I kateqoriya** | Ər-arvad, uşaqlar, qızının əri və ya oğlunun arvadı, valideynlər, ögey valideynlər, ərinin/arvadının valideynləri, bacılar və qardaşlar |
| **II kateqoriya** | Bacı və ya qardaş uşaqları və bacı və ya qardaşların ər və ya arvadları |
| **III kateqoriya** | Digərləri |

Vergi hədiyyə alan şəxs tərəfindən əldə olunmuş əmlakın xalis bazar dəyərinə tətbiq edilir.



Mənzillərə və yaşayış evlərinə daha səmərəli qiymətləndirmə qaydaları tətbiq olunur. Eyni şəxs tərəfindən 5 il müddətində təqdim edilən vergiyə cəlb olunan əmlakın dəyəri toplanır və bu, 1 əməliyyat hesab olunur. Qızının əri və ya oğlunun arvadı və ərinin/arvadının valideynləri istisna olmaqla, I kateqoriyaya aid edilən qohumlardan alınan miras və ya hədiyyələr, mirası və ya hədiyyəni alan şəxsin onu aldıqdan sonra 6 ay müddətində vergi orqanına məlumat verməsi şərtilə, vergidən azaddır.

Bununla yanaşı, aşağıda göstərilən əşyalar miras və hədiyyə vergisindən azaddır:

- I və II kateqoriyaya aid şəxslərdən alınmış mebel, geyim əşyaları və s.;
- fermalar;
- fermerlər tərəfindən miras və ya hədiyyə şəklində alınmış kənd təsərrüfatında istifadə olunan nəqliyyat vasitələri və maşınlar;
- müəyyən şərtlər daxilində miras qalmış əntiq əşya və incəsənət əşyaları kolleksiyası;
- əmlak qanunvericiliyində nəzərdə tutulmuş formada əldə olunmuş və saxlanmışdırsa, I və II kateqoriyaya aid şəxslərdən miras qalmış daşınmaz əmlak;
- I kateqoriyaya aid edilən şəxslərdən miras və ya hədiyyə şəklində alınmış daşınar və ya daşınmaz əmlak, o şərtlə ki, həmin əmlak üzərində birgə mülkiyyət hüququ başa çatsın;
- miras qalmış və vəfat etmiş şəxs tərəfindən yaradılan və ya yazılan incəsənət əşyalarının kolleksiyası və ya əlyazmalar.

***Transfer vergiləri.*** Malların, əmlakın və əmlak hüquqlarının satışı və mübadiləsi mülki hüquqi əməliyyatlar üzrə vergiyə cəlb olunur. Vergi - əməliyyatın ƏDV-yə cəlb olunan iqtisadi fəaliyyətə aid edilmədiyi halda tətbiq olunur. Eyni zamanda, daşınmaz əmlakın satışı ƏDV-dən azad olunanda bu öhdəlik yaranır.

***Aksizlər.*** Enerji məhsulları və elektrik enerjisi, Polşada istehsal olunan minik avtomobillərinin idxalı, spirt və spirtli içkilər və istehsal edilmiş tütün kimi məhsulların istehsalı, idxalı və Avropa Birliyi daxilində əldə olunması zamanı aksizlər tətbiq edilir.

*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Tovuz rayonunda şəhər; 2.ABŞ-da şəhər. Coca-Cola-nın vətəni; 3.Vergi növlərindən biri; 4.Köhnə kompüterlərdə 3.5 düymlük maqnit informasiya daşıyıcısı; 5.Türk mifologiyasında səyahət ilahəsi; 6.Fransa ilə İngiltərə arasında boğaz, həmçinin bu iki ölkəni bağlayan tunelin adı; 9.Ukraynada çay; 13.Tarixdə ilk dəfə Avropadan Hindistana gəmi ilə səyahət etmiş portuqaliyalı səyyah; 15.Gürcüstanın Borçalı bölgəsində rayon; 16.Orqanizmdə əsəb sisteminin normal vəziyyətdən kənara çıxması; 17.Yer kürəsinin atmosfer qatına daxil olarkən görünən iz buraxan xırda səma cisimləri; 18.Laçın rayonunda kənd; 20.Müxtəlif tualet əşyaları qoymaq üçün siyirtməli şkaf növü; 21.Şimali Çində çay. **Soldan sağa:** 1.Borulu patefon; 5.Geniş yayılmış kənd təsərrüfatı aləti; 7.Velosiped yarışları keçirmək üçün xüsusi meydan; 8.Ərəb dilindən tərcümədə elmlə məşğul olan, düşünən və yaradıcı təbəqənin nümayəndəsi olan şəxs; 10.Türk kişi adı; 11.Məşhur sovet Arktika tədqiqatçısı, coğrafiya elmləri doktoru. Bakıdakı Ceyhun Səlimov küçəsinin əvvəlki adı; 12.Hərbi konfliktlər zamanı mədəni dəyərlərin qorunması haqqında konvensiya; 14.Türk mənşəli söz olub, qədim nəqliyyat vasitəsi; 19.Hindu tayfa birliyinin və şauni xalqının lideri; 21.Zərdab rayonunda kənd; 22.Almaniyada çay; 23.Binaların fasadlarında məşhur şəxslərin mərmər və ya qranit üzərində adları həkk olunmuş lövhəcik; 24.Dünya ədəbiyyatında qalmaqallı romanlar müəllifi və sadizmin banisi kimi tanınan fransız zadəgan, yazıçı və filosofun soyadı; 25.Mübadilə fəaliyyətini həyata keçirmək üçün bazarda aparılan məqsədyönlü fəaliyyət.



Məşhur səyyahın Hindistana yola salınması. Alfredo Qameiro

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qayday *(Leonid)*; 2.Atribut; 3.Elman; 4.Ağdərə; 5.Yarki; 6.Lantan; 9.Abla; 13.Arno; 15.Başarat; 16.Omofon; 17.Korall *(dənizi)*; 18.Kratos; 20.Rəcəb; 21.Əmlak. **Soldan sağa:** 1.Qvatemala; 5.Yol; 7.Yarımada; 8.Uran; 10.Alban; 11.Rubrika; 12.Atlas; 14.Habbl *(Edvin)*; 19.Marenqo; 21.Əfşar; 22.Fici *(dənizi)*; 23.Ballarat; 24.Neb; 25.Delikates .

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Güləş üzrə «Qızıl Qran-pri» beynəlxalq turniri başa çatdı

Noyabrın 27-də Bakı İdman Sarayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə «Qızıl Qran-pri» beynəlxalq turnirinin final mərhələsi start götürüb. Sayca səkkizinci dəfə keçirilən turnirdə 41 ölkədən dünyanın 450-yə yaxın ən güclü pəhləvanları mübarizə aparıblar.



İlk yarış günündə sərbəst güləş üzrə 57, 61, 65, 70, 74, 86, 97 və 125 kq çəki dərəcələrində qaliblər müəyyənləşib. 61 kq çəki dərəcəsində mübarizə aparan Hacı Əliyev yaponiyalı Şinqo Arimotonu, gürcüstanlı Beka Lomitadzeni və rusiyalı Aleksandr Baqomoyevi məğlub edərək finala yüksəlib. Final qarşılaşmasında təmsilçimiz İran pəhləvanı İmam Sadekikokuandeni 8:2 hesabı ilə məğlub edib. İkinci qızıl medalı ikiqat Avropa çempionu Cəbrayıl Həsənov qazanıb. 74 kq çəki dərəcəsində mübarizə aparan güləşçimiz iranlı Mostafa Hosseinxanini, amerikalı Entoni Valensiyanı, türkiyəli Soner Demirtaşı məğlub edərək finala çıxıb. Həlledici mərhələdə Rusiya təmsilçisi Xetik Tçabolovu 12:8 hesabı ilə udaraq, Cəbrayıl Həsənov «Qızıl Qran-pri» turnirində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 86 kq çəki dərəcəsinin finalında iki Azərbaycan təmsilçisi qarşılaşıb - Aleksandr Qostiyev və Nurməhəmməd Hacıyev. A.Qostiyev finala gedən yolda polşalı Patrik Dublinovskini, gürcüstanlı Sandro Aminaşvilini, N.Hacıyev isə amerikalı Devid Teyloru, iranlı Ehsan Laşqarini məğlub edib. Gərgin mübarizə şəraitində davam edən final qarşılaşmasında Aleksandr Qostiyev 2:0 hesabı ilə qalib gəlib. Gümüş medallara Toğrul Əsgərov (70 kq), Nurməhəmməd Hacıyev (86 kq), Şərif Şərifov (97 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) sahib olublar. Bürünc mükafatlara isə Mahir Əmiraslanov (57 kq), Teymur Məmmədov (65 kq), Hacımurad Ömərov (70 kq) və Aslanbek Alborov (97 kq) yiyələniblər.

Noyabrın 28-də isə qadın güləşi üzrə 48, 53, 55, 58, 60, 63, 69 və 75 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib. Təəssüf ki, bu növ üzrə güləşçilərimiz ümidləri doğrulda bilməyiblər. Yalnız təmsilçimiz Nataliya Sinişin (55 kq) finaladək inamla mübarizə aparsa da, həlledici görüşdə Çin təmsilçisinə uduzaraq gümüş medalla kifayətlənməli olub. Yığma komandamızın digər üzvləri - Şəfəq Muradzadə (48 kq), Anjela Doroqan (53 kq), Alyona Kolesnik (55 kq), Elmira Qəmbərova (63 kq) və Səbirə Əliyeva (75 kq) bürünc medal uğrunda görüşlərdə məğlub olaraq turniri medalsız başa vurublar.

Yarışın sonuncu günündə, noyabrın 29-da yunan-Roma güləşi üzrə 59, 66, 71, 75, 80, 85, 98 və 130 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib. Bütün rəqiblərindən üstün olan Şalva Qadabadze (98 kq) və Sabah Şəriəti (130 kq) turnirin baş mükafatını qazanıblar. Kamran Məmmədov (66 kq), Rüstəm Əliyev (71 kq) və Rafiq Hüseynov (80 kq) yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətlənməli olublar. Bürünc medalları isə yığmamıza Eldəniz Əzizli (59 kq), Həsən Əliyev (66 kq), Elvin Mürsəliyev (80 kq) və İslam Abbasov (85 kq) qazandırıblar.

Beləliklə, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə «Qızıl Qran-pri» beynəlxalq turnirinin final mərhələsini güləşçilərimiz ümumilikdə 21 - 5 qızıl, 8 gümüş və 8 bürünc medalla başa vurublar.

# Veloparkda ağacəkmə kampaniyası

Noyabrın 30-da «Coca-Cola» şirkəti, ADA Universiteti və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə həyata keçirdiyi irimiqyaslı ekoloji aksiya çərçivəsində BMX veloparkında ağacəkmə kampaniyası ilə bağlı tədbir keçirilib. Geniş bir sahəni əhatə edən bu yaşıllaşdırma aksiyasında ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov, «Azerbaijan Coca-Cola Bottlers» şirkətinin baş direktoru Cem Becel, velosiped həvəskarları, tələbələr və media nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, bu ilin may ayından başlayan kampaniya çərçivəsində artıq veloparkda 14 mindən çox ağac əkilib. Bu tədbirdə isə daha 1000 ağac əkilib.

«Azərbaycan Coca-Cola Bottlers» şirkətinin baş direktoru Cem Becel ABŞ-ın Atlanta şəhərində yerləşən «Coca-Cola» muzeyindən gətirilmiş çox nadir bir velosipedi Azərbaycan Velosiped İdmanı Federasiyasının muzeyində saxlanılması üçün federasiyanın vitse-prezidenti Sahib Ələkbərova təqdim edib. Qeyd olunub ki, «Coca-Cola» şüşəsi formasında hazırlanmış bu velosiped şirkətin velosiped idmanına həsr edilmiş ilk televiziya reklamlarından birində istifadə olunub və bu, onun velosiped idmanına dəstəyinin və bağlılığının bir rəmzidir.

Ağacəkmə aksiyasından sonra ölkəmizin müxtəlif media qurumlarının nümayəndələri arasında velosiped yarışı keçirilib. Yarışda birinci yerə Sportarena.az idman portalının jurnalisti Vüsal Mirzəyev, ikinci yerə AZƏRTAC-ın fotoqrafı Tapdıq Abdullayev, üçüncü yerə isə «Report» İnformasiya Agentliyinin müxbiri Cavid Əzimov layiq görülüb. Yarışda fərqlənənlər Azərbaycan Velosiped İdmanı Federasiyası, «Coca-Cola» şirkəti və ADA Universiteti tərəfindən xatirə hədiyyələri ilə mükafatlandırılıblar. Yarışın yeganə xanım iştirakçısı - «Lider» televiziyasının müxbiri Şəhla Abdullayeva isə mübarizə əzminə görə təltif olunanlar sırasında yer alıb.



mozaika

## Nobel mükafatı

tarixdə ötən həftə

Alfred Nobel 21 oktyabr 1833-cü ildə İsveçin paytaxtı Stokholm şəhərində mühəndis ailəsində anadan olmuşdur. İxtisasca kimyaçı-mühəndis olan Nobel həyatı boyunca bir sıra ciddi ixtiralar etmiş və böyük var-dövlət sahibi olmuşdur. Onun ən məşhur ixtirası - dinamit partlayıcı maddəsinin hazırlanmasıdır.






Bir dəfə Fransa qəzetlərinin birinin müxbiri Alfredin qardaşı Lüdviqin Rusiyada ölüm xəbərini səhvən onun ölümü kimi təqdim edir. Bu hadisədən sonra Alfred Nobel yaddaşlardan silinməmək üçün tarixə düşəcək bir vəsiyyətnamə hazırlayır. Beləliklə, 27 noyabr 1895-ci ildə Parisin İsveç-Norveç klubunda o, tarixi vəsiyyətnaməsini imzalayır. «Mənim bütün daşınan və daşınmaz əmlakım öz qəyyumlarım vasitəsilə pula çevrilə bilən dəyərə sərf olunmalı, bu yolla yığılmış kapital etibarlı banka qoyulmalıdır.

Qəyyumlarım tərəfindən fond yaradılmalı və hər il ötən il ərzində bəşəriyyətə daha çox xeyir gətirən, bəşəriyyətin və insanların inkişafı naminə həyata keçirdiyi işlərə görə qaliblər seçilib onlara pul mükafatı təqdim edilməlidir. Hər bir mükafatçıya bərabər məbləğdə ödənilməklə pul mükafatı 5 sahəni əhatə etməlidir: bir hissəsi - fizika sahəsində olduqca vacib kəşf və ya ixtira etmiş şəxsə, o biri hissəsi - kimya sahəsində vacib kəşf və ya yenilik etmiş şəxsə, üçüncü hissəsi - fiziologiya və tibb sahəsində daha çox əhəmiyyət kəsb edən kəşf etmiş şəxsə, dördüncü hissəsi - idealist istiqamətində məşhur ədəbi əsər yaradan şəxsə, beşinci hissəsi isə millətlərin birləşdirilməsi, köləliyin ləğvi və yaxud mövcud müharibələrin sayının azaldılması və sülh qurultaylarının keçirilməsinə kömək etməkdə çox mühüm işlər görmüş şəxsə təqdim edilir. Mənim son dərəcə vacib xahişim ondan ibarətdir ki, mükafatçıları seçərkən onların milliyyətinə və yaşadıqları ölkəyə önəm verilməsin, mükafat ən layiqli olanlara təqdim olunsun».

## Kimsəsizlərin sığınacağı

araşdırma

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) rəyasət heyəti aparatının Azərbaycanda elmi irsin toplanması və sistemləşdirilməsi mərkəzinin rəhbəri, tarix elmləri doktoru Zemfira Hacıyeva AMEA-da 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində araşdırmalar aparıb. Nəticədə aşkara çıxan unikal tarixi faktlar Azərbaycanı bir daha tolerantlıq, humanizm və multikulturalizmin mövcud olduğu bir ölkə kimi təsdiqləyib.

Həmin nadir materialların araşdırılması və təhlili zamanı 1940-cı illərin əvvəllərinə aid kinoxronikada İspaniyadan Azərbaycana kimsəsiz uşaqların gətirildiyi müəyyənləşdirilib. İkinci Dünya müharibəsinin ağır illərində Hitler Almaniyasının işğalına məruz qalan İspaniyadan olan uşaqlara Azərbaycan torpağında sığınacaq verilib.

Xalq şairi Rəsul Rzanın sözləri ilə başlanan tarixi kinoxronikanın məlumatına görə, 500 mindən çox ispan öz Vətənini tərk etmək məcburiyyətində qalıb. Nadir kadrlarda «Feliks Dzerjinski» adına buxarlı gəmidə Azərbaycana gətirilən minlərlə ispaniyalı uşağın görüntüləri əks olunub.

Azərbaycan xalqı müharibə illərində ağır günlər keçirməsinə baxmayaraq, qlobal səviyyədə multikulturalizm, tolerantlıq, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşma dəyərlərinin aşılanması prosesinə əvəzsiz töhfələr verib.

faydalı

## Evdə lazım olar

- Soğan yedikdən sonra iyinin ətrafdakılara xoşagəlməz təsir bağışlamasının qarşısını almaq üçün azca süd içmək kifayətdir.
- Balığı yuyarkən əvvəlcə üstündən qaynar su axıtsanız, pulları asanlıqla və sonadək təmizlənər.
- Yağlı xəmir yoğurarkən ona süd qatmaq məsləhətdir. Su qatılmış xəmiri bişirəndə rəngi qaralır, keyfiyyətini itirir.
- Bəzən qabığını soyandan sonra kartofu bişirmədən müəyyən qədər saxlamaq lazım gəlir. Soyulmuş kartofun göyərməməsi və keyfiyyətini itirməməsi üçün onun üstünə bir lay un səpin.
- Keks, tort, peçenye uzun müddət saxlanılarkən, köhnəlməsin deyə, onları içərisində bir parça çörək qoyulmuş dəmir qutuya qoymaq məsləhətdir. Bu zaman qutudakı çörəyi günaşırı dəyişdirib təzəsi ilə əvəz etməyi unutmayın.

cəmiyyət

## Qiymət artımında lider

Beynəlxalq konsaltinq şirkəti «Knight Frank» dünya üzrə premium daşınmaz əmlakın 2015-ci ilin 3-cü rübü üzrə indeksini açıqlayıb. İndeks dünyanın 34 şəhəri üzrə premium daşınmaz əmlakın qiymət dinamikasını izləyir.

Siyahıda 1-ci yerdə Kanadanın Vankuver şəhəridir. Bu şəhərdə keçən ilin sentyabrından bu ilin sentyabrına kimi qiymət artımı 20,4 faiz təşkil edib. Xatırladaq ki, Vankuver artıq ikinci ildir ki, qiymət artımına görə liderdir. Avstraliyanın Sidney şəhərində illik qiymət artımı 13,7 faiz təşkil edib. 3-cü yeri tutan Şanxayda isə qiymət artımı 10,7 faiz təşkil edib. İlk beşlikdə Cakarta və Melburn şəhərləri də yer alıb. Burada eyni qiymət artımı (9,4 faiz) qeydə alınıb. Keçmiş SSRİ şəhərləri arasında reytinqdə yalnız Moskvanın göstəriciləri verilib. Rusiyanın paytaxtı reytinqdə 32-ci yerdədir. Burada qiymət enməsi 3,8 faiz təşkil edib. Moskvada elit səviyyəli mənzillərin bir kvadratmetrinin orta qiyməti 14.250 dollar təşkil edir.

Dünya regionları arasında qiymət artımına görə lider Avstraliyadır (11,6 faiz), ikinci yerdə 8,5 faizlə Şimali Amerika yerləşib. Avropada isə bir il ərzində orta qiymət artımı 0,8 faiz təşkil edib.

ABŞ dollarının məzənnəsi artdıqca, premium daşınmaz əmlak investorların diqqət mərkəzində olacaq. Hazırda Yunanıstan və Avropada müşahidə olunan mürəkkəb vəziyyətdən daha çox Çində iqtisadi artım templərinin azalması narahatlıq doğurur. Amma «Knight Frank»ın qənaətinə görə, Çin investorları xarici daşınmaz əmlak bazarlarına, o cümlədən Böyük Britaniya, ABŞ, Kanada və Avstraliyaya yatırım etməyə davam edəcəklər.

«Carvana» kompaniyası yeniliyin xeyli qənaət etməyə imkan yaratdığını bildirib. Belə ki, avtomobili satmaq üçün bahalı satış mərkəzlərinə üz tutmağa ehtiyac qalmır.



## Avtomobil satan avtomat

maraqlı

Yaşlı nəslin yaddaşında şəhərlərdə quraşdırılan susatan avtomatların ayrıca yeri var. Sonradan avtomatlaşmanın əhatə dairəsi genişləndi və o yerə çatdı ki...

Rusiyanın NTV telekanalının yaydığı məlumata görə, ABŞ-da ilk dəfə olaraq avtomobilsatan avtomat quraşdırılıb.

Bu qurğunu işlənmiş maşınların onlayn ticarəti ilə məşğul olan «Carvana» şirkəti istifadəyə verib. İnternet saytında müvafiq sənədləri doldurub ödəniş etdikdən sonra alıcıya nəhəng dəmir pul verilir. Pul beşmərtəbəli avtomatın qəbuledicisinə qoyulur və bundan sonra robot satılmış avtomobili yeni sahibinə təqdim edir.

Hələlik maşınsatan avtomat yalnız Tennessi ştatının Neşvill şəhərində qoyulub. Kompaniya bu cür qurğuları ABŞ-ın daha bir neçə şəhərində quraşdırmağa hazırlaşır.

**Müdriklər deyib ki...**

*«Gülə bilmək üçün kimisə ağlatma və öz mənafeyin naminə kimisə satma».*

*Onore de Balzak (1799-1850)*

